

Milli azadlıqdan şirin nemət yoxdur!

# İlham Əliyev İranın Ali Rəhbərinə başsağlığı verib



Bax səh. 2

YENİ AZƏRBAYCAN
Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir
Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.
21 may 2024-cü il, çərşənbə axşamı
№ 089 (6675)
Qiyməti 60 qəpik

# Prezident Zəngilan və Cəbrayılda olub



Bax səh. 2

## Konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq

Bax səh. 4



## Çin XİN-in sözçüsü: Tayvan boğazının vahid Çinə məxsus olması faktı dəyişməyəcək

Bax səh. 2



## "Qız Qalası" hidroqovşağının açılışı və "Xudafərin" hidroqovşağının istismara verilməsi tarixi hadisədir

Bax səh. 3

## Azərbaycan Cənubi Qafqazın şəksiz lideridir

Bax səh. 3

## Gürcüstan hadisələrində "Fransa izi"

Bax səh. 4

## İranda helikopter qəzası...

Xəbər verildiyi kimi İran Prezidenti İbrahim Rəisinin helikopteri qəzaya uğrayıb. Prezidenti daşıyan helikopter İran-Azərbaycan sərhədindən çox da uzaq olmayan Verzeqan şəhəri yaxınlığında sərt eniş edib. Helikopterdə Prezident İbrahim Rəisi ilə birgə Təbrizin cümə imamı Höccətülislam əl-Haşim, XİN başçısı Hüseyn Əmir Abdullahian, Şərqi Azərbaycan qubernatoru Malik Rəhməti, iki pilot və bir pilot köməkçisi, təhlükəsizlik qrupunun rəhbəri, mühafizəçilərdən biri olub. Qəza nəticəsində helikopterdə olan bütün şəxslər həyatını itirib.

**Azərbaycan Prezidenti başsağlığı verdi...**

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti İbrahim Rəisinin faciəvi vəfatı ilə...

Bax səh. 3

## Azad ərazilər turizmin ən cəlbedici ünvanına çevrilir

Məlum olduğu kimi Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hoteli istifadəyə verilib. Yeni infrastruktur və xidmət obyekti Azərbaycanın işğaldan azad edilmiş ərazilərində turizm potensialının növbəti təzahürü olmaqla, bu bölgənin həm də böyükşəbəkəli turizm mərkəzinə çevrilməsinin göstəricisi hesab edilir. Nəzərə alsaq ki, Zəngilanda Beynəlxalq Hava Limanı da istifadəyə verilib, bu da turizm xidmətində ən mühüm amillərdən biri olan nəqliyyat infrastrukturunun xüsusi önəmi fonunda xarici turistlərin axını üçün geniş...

Bax səh. 5

## Türkiyəli nazirin Zəngəzur anonsu..

44 günlük Vətən müharibəsində Azərbaycanın qələbə qazanmasından sonra regionda yaranan yeni reallıqlar fonunda Zəngəzur dəhlizinin açılması təşəbbüsləri mühüm yer tutmaqdadır. Bu dəhliz Avropa ilə Asiya arasında iqtisadi-ticarət əlaqələrini daha da genişləndirməklə yanaşı, geosiyasi əhəmiyyət daşıyır. Bu amil həm də Azərbaycanla Ermənistanın münasibətlərinin normallaşması prosesinə müsbət təsir göstərə bilər.

Dünyanın bir çox aparıcı dövlətlərinin də dəstəklədiyi bu layihənin gerçəkləşməsi isə rəsmi İrəvanın qeyri-konstruktiv mövqeyi səbəbindən ləngiyir. Ermənistanın məqsədi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyanın bərpasına mümkün qədər əngəl olmaqdır. Lakin rəsmi İrəvan bu layihənin...

Bax səh. 5

## Azərbaycan və Tacikistan arasında 8 saziş imzalanıb

Bakıda Azərbaycan-Tacikistan Biznes Forumu keçirilib. İqtisadiyyat naziri Mikayıl Cabbarovun və Tacikistanın sənaye və yeni texnologiyalar naziri Şerali Kabirin iştirakı ilə baş tutan tədbirdə hər iki ölkənin iş adamları, biznes strukturlarının təmsilçiləri və dövlət orqanlarının nümayəndələri iştirak edirlər. Forumun əsas məqsədi ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrini genişləndirmək, iş adamlarının əməkdaşlığı üçün münbit şərait yaratmaqdan ibarətdir. Forumda kənd təsərrüfatı, sənaye, nəqliyyat, emal sahələrində fəaliyyət...

Bax səh. 5

## Macarıstandan AŞPA-ya çağırış:

İslamofobiyanın kök saldığı beynəlxalq təşkilatlardan biri olan Avropa Şurası Parlament Assambleyası (AŞPA) tərəfindən 2024-cü ilin yanvar ayında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin qəbul və ratifikasiya olunmaması ölkəmizə qarşı qərəzin bariz nümunəsidir. Təşkilatda iki müsəlman ölkəsindən biri olan Azərbaycan AŞPA-dakı islamofob ritorikaya cavab olaraq təşkilatdakı fəaliyyətini dayandırdı.

Assambleya tərəfindən Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin qəbul edilməməsi müxtəlif ölkələr tərəfindən də etirazla qarşılanmaqdadır. Bu günlərdə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto "Apha News"a müsahibəsində Azərbaycan nümayəndə heyətinin AŞPA-ya qayıtmasının...

Bax səh. 3

# Prezident Zəngilan və Cəbrayılda olub

Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 18-də Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hotelinin açılışında iştirak ediblər. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev oteldə yaradılan şərait barədə dövlətimizin başçısına və birinci xanıma məlumat verərək bildirib ki, "Ağalı" hoteli Zəngilan şəhər mərkəzindən 20 kilometr məsafədə, Həkəri çayı vasitəsilə yaradılmış süni gölün sahilində yerləşir. Hotelin binası üç mərtəbədən ibarətdir. Birinci mərtəbədə qonaqları foye və rahat gözləmə zonası qarşılayır. Foyenin sağ və sol hissələrində restoranlar fəaliyyət göstərəcək. Birinci mərtəbənin sağ qanadında 60 nəfərlik tədbir otağı, həmçinin işgüzar görüşlər üçün 20 nəfərlik iclas zalı mövcuddur. Sol qanadda isə xüsusi qonaqların qarşılanması üçün tədbir zalı və 76 nəfərlik restoran var.









Hotelin ikinci və üçüncü mərtəbələri eyni tipli otaqlardan ibarətdir. Hər mərtəbədə 39 otaq var. Həmçinin hotelin hər mərtəbəsində fiziki məhdudiyyətli qonaqlar üçün xüsusi dizayn edilmiş otaqlar da mövcuddur. "Ağalı" hotelinin zirzəmi hissəsində qonaqların sağlamlıq və istirahətini təmin etmək məqsədilə fitnes mərkəzi yaradılıb.

Dövlətimizin başçısı Zəngilan rayonunun Mincivan qəsəbəsinin təməlini də qoyub. Layihələndirilən ərazi rayon mərkəzindən 13,2 kilometr cənub-şərq istiqamətində, Araz çayının sahilində - respublika əhəmiyyətli Əhmədbəyli-Horadiz-Mincivan-Ağbənd yolu və Horadiz-Ağbənd dəmir yolu xətti üzərində yerləşir. Qəsəbənin sahəsi 301,51 hektardır. 2040-cı ilədək qəsəbədə 9088 nəfər üçün 630 fərdi ev və bir neçə mərtəbəli yaşayış binalarının tikilməsi nəzərdə tutulub. Mincivan qəsəbəsində yaşayacaq əhalinin məşğulluğunun təmin olunması məqsədilə idarəetmə, mədəniyyət və əyləncə, iqtisadi inkişaf obyektləri, xidmət və kommersiya müəssisələri yaradılacaq. "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələ üçün layihələndirilən ərazinin sahəsi 153,4 hektardır. Bu mərhələdə Mincivan qəsəbəsinə 3146 nəfərin köçürülməsi üçün 628 fərdi ev və 92 mənzildən ibarət bir neçə mərtəbəli dörd yaşayış binasının tikintisi nəzərdə tutulur.

Prezident İlham Əliyev "Zəngilan" və "Şayıflı" Su Elektrik stansiyalarının açılışlarını da edib. Prezident İlham Əliyevin Zəngilana səfəri çərçivəsində şəhərin daxili yol-kommunikasiya şəbəkəsinin təməli də qoyulub. Dövlətimizin başçıs Horadiz-Zəngilan avtomobil yolunda görülən əsaslı təmir işlərilə tanış olub.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 18-də Zəngilan məscidinin açılışında iştirak ediblər. Məscidin tikintisini Heydər Əliyev Fondu "PAŞA Holdinq" MMC-nin dəstəyi ilə həyata keçirib.

Prezident İlham Əliyev Cəbrayıl rayonuna səfər çərçivəsində Böyük Mərcanlı kəndinin təməlini qoyub. Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Vahid Hacıyev dövlətimizin başçısına kəndin Baş planı üzrə görüləcək işlərlə bağlı məlumat verərək bildirib ki, Böyük Mərcanlı kəndi Araz vadisində, Cəbrayıl şəhərindən 22 kilometr məsafədə yerləşir. Cəbrayıl rayonunun ən iri yaşayış məntəqələrindən biridir. Baş plana əsasən kəndin ümumi sahəsi 362 hektar təşkil edir. 2040-cı ilədək 6230 nəfər əhali üçün 1074 fərdi ev və bir neçə mərtəbəli yaşayış binaları layihələndirilib. Burada inzibati bina, klub-icma mərkəzi, çoxfunksiyalı bina, idman və ailə-sağlamlıq mərkəzləri, mərasim evi, bazar kompleksi və digər qeyri-yaşayış obyektlərinin tikintisi nəzərdə tutulur. Həmçinin Böyük Mərcanlı kəndində əhalinin tələbatına uyğun olaraq iki məktəb və beş uşaq bağçası inşa olunacaq. 2026-cı ilədək dövrü əhatə edən "Böyük Qayıdışa dair I Dövlət Proqramı"na müvafiq olaraq, birinci mərhələdə layihələndirilən ərazinin sahəsi 41 hektardır. Bu mərhələdə Böyük Mərcanlıya 542 nəfərin köçürülməsi üçün 149 fərdi ev tikiləcək. İnşa ediləcək evlər iki, üç, dörd və beş otaqlı olacaq.

Dövlətimizin başçısı Cəbrayıl rayonunun Karxulu kəndinin təməlinin qoyulması mərasimində də iştirak edib. 2040-cı ilədək kəndin layihələndirilən ərazisi 313 hektar təşkil edir və bu müddət ərzində kənddə 4428 sakin üçün 940 fərdi ev və bir neçə mərtəbəli bloklu evlərin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulur. Prezidenti İlham Əliyev Cəbrayıl rayonunun Sarıcallı və Maşanlı kəndlərinin də təməlini qoyub. Baş planda Sarıcallı kəndin ümumi sahəsi 330 hektar təşkil edir. 2040-cı ilədək 4740 nəfər əhali üçün 1185 fərdi evin və bir neçə mərtəbəli bloklu binaların layihələndirilməsi nəzərdə tutulur. Maşanlı kəndinin isə 2040-cı ilədək layihələndirilən ərazisi 157,54 hektar olacaq. Həmin müddətdə kənddə 2360 sakin üçün 590 fərdi evin layihələndirilməsi, eləcə də tikintisi nəzərdə tutulub.

# Prezident İlham Əliyev İran Prezidentinin və digər müşayiət edən şəxslərin həlak olmaları ilə bağlı İranın Ali Rəhbərinə başsağlığı verib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında həlak olmaları ilə bağlı İranın Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneiyə başsağlığı verib.

Dövlətimizin başçısının başsağlığı məktubunda qeyd olunub: "Dost və qardaş İran İslam Respublikasına və xalqına üz vermiş ağır itki - İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması xəbəri bizi olduqca sarsıtdı. Prezident Seyid İbrahim Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi. Onun əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır".

Dövlətimizin başçısı bu hüznlü gündə Uca Allahdan dost və qardaş İran xalqına səbir və dözüm diləyib, kədərinə şərik olduğumuzu bildirib, İranın Ali Rəhbərinə, həlak olanların ailələrinə və yaxınlarına, İran xalqına öz adından və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verib.

# Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə zəng edib



Mayın 20-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə zəng edib.Telefon söhbəti zamanı Türkiyə-Azərbaycan əlaqələri, regional və qlobal proseslər müzakirə olunub. Prezident Rəcəb Tayyib Ərdoğan Azərbaycan ilə Ermənistan arasında sülh prosesinin müsbət istiqamətdə irəliləməsindən məmnunluğunu ifadə etdi və Türkiyənin prosesi yaxından izlədiyini bildirib. Türkiyə Prezidenti bölgədə təmin olunacaq ədalətli və davamlı sülhün həm Azərbaycan, həm Ermənistan, eləcə də bölgə ölkələri üçün yeni bir mühit yaradacağını vurğulayıb. Söhbət zamanı gələcək əməkdaşlıq haqqında fikir mübadiləsi aparılıb.

# Prezident İlham Əliyev Latviya Seyminin sədrinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 20-də Latviya Seyminin sədri Dayqa Mierinanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.Ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyini vurğulayan Prezident İlham Əliyev dövlət başçıları səviyyəsində və digər səviyyələrdə həyata keçirilən qarşılıqlı səfərlərin əlaqələrimizin genişlənməsinə töhfə verdiyini qeyd edib, parlamentlərarası əməkdaşlığın önəmini təlqin etdi.



Dövlətimizin başçısı bildirib ki, Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təmin olunmasından sonra regionda sülh üçün tarixi imkanlar yaranıb. Azərbaycan Prezidenti Minsk qrupunun həmsədrlərinin fəaliyyətinə toxunaraq, onun hər hansı nəticəyə hasil olmadığını, o zaman ərazilərimizin işğalının davam etdiyini vurğuladı. Hazırda isə sülh gündəliyinin irəli aparılması üçün çox yaxşı və əlverişli imkanların olduğunu deyən dövlətimizin başçısı sərhədlərin delimitasiyası və demarkasiyası istiqamətində də ikitərəfli proses çərçivəsində müsbət razılaşmaların əldə olunduğunu qeyd edib.

Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan bu münaqişəni həll etdi. Beləliklə, beynəlxalq münasibətlərdə bir münaqişə öz həllini tapıb. Lakin, buna baxmayaraq, təəssüf doğuran haldır ki, dünyada yeni münaqişə ocaqlarının formalaşması baş verməkdədir.

Dövlətimizin başçısı Dayqa Mierinanın Qarabağa səfərinə də toxunub. Latviya Seyminin sədri Qarabağa səfər etmək üçün onlara imkan yaradıldığını deyərək Şuşada və Qarabağın digər yerlərində olduqlarını məmnunluqla vurğulayıb, ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illik müddəti əhatə etməsinə baxmayaraq, xalqlarımız arasında mədəni əlaqələrin tarixinin daha dərin köklərinin olduğunu xatırladıb. Dayqa Mierina COP29-un Azərbaycanda keçirilməsi münasibətilə təbriklərini çatdırıb.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində ölkələrimiz arasında əlaqələrdən və qarşılıqlı dəstəkdən məmnunluq bildirildi. Latviyanın BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvlüyünə namizədliyinin dəstəklənməsinə görə Azərbaycana bir daha minnətdarlıq ifadə olundu. Azərbaycan ilə Avropa İttifaqı və NATO arasında əməkdaşlığa Latviyanın göstərdiyi dəstək və ölkəmizin Avropa İttifaqına üzv ölkələrin enerji təhlükəsizliyinə töhfəsi yüksək qiymətləndirilib. Orta Dəhlizin inkişaf etdirilməsində Azərbaycanın rolu və region dövlətləri ilə birgə fəaliyyəti qeyd olunub.

# Çin XİN-in sözçüsü Vang Venbin: Tayvan boğazının hər iki tərəfinin vahid Çinə məxsus olması faktı dəyişməyəcək



Tayvan adasındakı siyasi vəziyyət nə qədər dəyişsə də, bu, Tayvan boğazının hər iki tərəfinin vahid Çinə aid olması ilə bağlı tarixi və hüquqi tendensiyanı dəyişməyəcək. Çin Xarici İşlər Nazirliyinin mətbuat katibi Vang Venbin gündəlik mətbuat brifinqində bununla bağlı sorğuya cavab olaraq deyib. Çin Xarici İşlər Nazirliyinin sözçüsü bildirib ki, dünya ölkələrinin, beynəlxalq və regional təşkilatların böyük əksəriyyəti Çin hökuməti və xalqının yanında dayanır və Çinin Tayvanın "müstəqilliyinə" qarşı çıxmaq və birləşməyə kömək etmək kimi ədalətli işini dəstəkləyir.

Bir neçə ölkədən bəzi siyasətçilər siyasi manipulyasiya və Tayvanla bağlı məsələlərdə "şəxsi şoular"la məşğul olurlar ki, bu da Çinin daxili işlərinə ciddi şəkildə müdaxilə deməkdir və vahid Çin prinsipini pozur. Vang Venbin vurğulayıb ki, "Çin bu cür addımları qətiyyətlə pisləyir və öz milli suverenliyini və ərazi bütövlüyünü qəti şəkildə qorumaq üçün bütün lazımi tədbirləri görəcək".

V.Venbin Tayvanın "müstəqilliyinin" iflasa məhkum olacağına söyləyib. Xarici qüvvələrin Çinin daxili işlərinə qarışması və Tayvanın "müstəqilliyinə" göz yumması və dəstəklənməsi üçün heç bir haqqı yoxdur və "Çini cilovlamaq üçün Tayvandan istifadə etmək" cəhdi uğursuzluğa düçar olacaq. "Çinin tamamilə birləşəcəyi gün gələcək".

# Azərbaycan və İranın su diplomatiyası

## Prezident İlham Əliyev: “Qız Qalası” hidroqovşağının açılışı və “Xudafərin” hidroqovşağının istismara verilməsi tarixi hadisədir

Azərbaycanın milli maraqlar üzərində qurulan xarici siyasət kursu multiregional səciyyə daşıyır. Ölkəmizin siyasətində o cümlədən qonşu dövlətlərlə xoş niyyətə və qarşılıqlı maraqlara əsaslanan münasibətlərin qurulmasına, iqtisadi sahədə əməkdaşlığın dərinləşdirilməsinə böyük diqqət göstərilir. Respublikamızın qonşu dövlətlərlə birgə reallaşdırdığı enerji və nəqliyyat layihələri hazırda regional və qlobal əməkdaşlığa mühüm töhfələr verir. Bu günlərdə Azərbaycan Respublikası ilə İran İslam Respublikasının dövlət sərhədində - Araz çayı üzərində inşa edilən “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının istifadəyə verilməsi elektrik enerjisi istehsalı və suvarma məqsədlərində çatmaqda böyük infrastruktur obyekti hesab edilə bilər.

**Azərbaycan-İran münasibətlərində narahatlıq doğuran məqamlar aradan qalxıb**

Azərbaycan və İranın dövlət sərhəddində - Araz çayı üzərində mühüm infrastruktur obyektlərinin inşası ikitərəfli münasibətlərin xoş mərama əsaslanmasından xəbər verir. İran və Azərbaycan qonşu dövlətlərdirlər və onlar arasında tarixi bağlar mövcuddur. Burada dövlət başçılarının siyasi iradələrini xüsusi qeyd edə bilərik. Prezidentlərin görüşləri sayəsində ikitərəfli münasibətlərdə narahatlıq doğuran məqamlar keçmişdə qalıb.

Qonşu dövlətlər müxtəlif istiqamətlərdə birgə layihələr icra edirlər. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi, bizi birləşdirən layihələrin arasında təbii ki, nəqliyyat layihələri xüsusi rol oynayır. “Bu gün nəinki ölkələrimiz üçün, daha geniş coğrafiya üçün böyük əhəmiyyət daşıyan Şimal-Cənub Nəqliyyat Dəhlizinin yaradılması ilə əlaqədar birgə səylər göstərilib. Bu günə qədər göstərilən səylər artıq real layihələrə çevrilib. Bundan sonra həm İran ərazisində, həm Azərbaycan ərazisində müasir dəmir yolu infrastrukturunun yaradılması və modernləşdirilməsi Şimal-Cənub Nəqliyyat Dəhlizini dünyanın ən önəmli nəqliyyat damarına çevirəcəkdir. Hər iki ölkə burada öz səylərini birləşdirib. Şimal-Cənub Nəqliyyat Dəhlizi üzrə keçən il yükdaşımaların həcmi 50 faizdən çox artıb, bu ilin üç ayında da artıb. Bütövlükdə isə İranla Azərbaycan arasındakı yükdaşımaların artımı 50 faizdən çoxdur və bu, hələ başlanğıcdır, dəmir yolu tam istismara veriləndən sonra rəqəmlər daha da artacaq”.

Hazırda, eyni zamanda, Ağbənd istiqamətində yeni avtomobil körpüsü tikilir. Bu körpü tikiləndən sonra o da Şimal-Cənub Nəqliyyat Dəhlizinin bir hissəsi olacaq. Bu körpü təkcə Azərbaycanın əsas hissəsini onun ayrılmaz hissəsi olan Naxçıvan Muxtar Respublikası ilə birləşdirən körpü deyil, bu, beynəlxalq nəqliyyat dəhlizinin bir parçasıdır. Körpü Şimal-Cənub Dəhlizi ilə yanaşı, həm də, Şərq-Qərb Nəqliyyat Dəhlizlərinin bir hissəsi olacaq. Bütövlükdə, Ağbənd yolu regionları birləşdirən əsas nəqliyyat-tranzit bağlantılarından biri olacaq. Buradan Türkiyəyə və İran vasitəsilə Fars körfəzinə yüklərin



daşınması həyata keçiriləcək. Qarşıda dəmir yolunun da çəkilməsi nəzərdə tutulur.

“Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının inşası ilə ikitərəfli münasibətlərdə yeni bir səhifə açılıb. Ölkələrimiz arasında xoş niyyətə əsaslanan münasibətlərin inkişafını təmin edən siyasətin töhfəsi olaraq uzun illərdir fəaliyyət göstərən Araz, Mil-Muğan su anbarları və Araz Su Elektrik Stansiyasından sonra Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları və su elektrik stansiyaları layihəsinin həyata keçirilməsi göstərir ki, Azərbaycan və İran öz aralarındakı sərhədi davamlı şəkildə səmərəli əməkdaşlıq imkanlarına uğurla çevirən ölkələrdir. Azərbaycan qarşıdan gələn dövrdə də İranla kitərəfli əlaqələri inkişaf etdirmək istiqamətində siyasət yürüdəcək.

**İşğalın ləngitdiyi layihə**

Araz çayı dörd ölkə arasında yerləşir və hər zaman iqtisadi, mədəni, tarixi cəhətdən önəm daşıyıb. Çay üzərində, eyni zamanda, zaman-zaman müxtəlif iqtisadi infrastrukturlar yaradılıb. Ətrafda yaşayan insanlar çayın potensialından həmişə böyük dərəcədə faydalanıblar. Paralel şəkildə, ölkələr Araz çayının suyundan istifadə etmək üçün hər zaman əməkdaşlıq ediblər. Məlumdur ki, çayını üstündə 12 kilometr uzunluğa malik və eyni zamanda, sellərin qarşısını alan bəndin imkanlarından geniş istifadə olunub.

Bəhs olunan hidroqovşaqların layihələri keçmiş Sovet İttifaqı ilə İran arasında 1977-ci ilin oktyabrında imzalanan razılaşma əsasında hazırlanıb. Hidroqovşaqların layihələri ötən əsrin doxsanıncı illərinin əvvəllərində yenidən işlənib və ona bir sıra əlavələr edilib. Bununla belə, infrastruktur obyektlərinin inşası Ermənistanın Azərbaycana qarşı apardığı və təxminən otuz il davam edən işğalçılıq siyasəti nəticəsində ləngiyib. Hidroqovşaqların tikintisi Azərbaycan ərazisinin 20 faizi Ermənistan tərəfindən işğal edilməsi nəticəsində dayandırılsa da, sonrakı dövrlərdə tikinti işləri yalnız İran İslam Respublikası tərəfindən aparılıb.

Ancaq işğal faktına baxmayaraq. Azərbaycan hidroqovşaqların tikintisi ilə bağlı siyasi iradədən heç vaxt geri çəkilməyib. Prezident İlham Əliyev 11 iyul 2016 tarixində “Azərbaycan Respublikası Hökuməti ilə İran İslam Respublikası Hökuməti arasında Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismarı, energetika və su ehtiyatlarından istifadə sahəsində əməkdaşlıq haqqında” Sazişin təsdiq edilməsi barədə Azərbaycan Respublikasının Qanunu təsdiqləyib. Xatırladaq ki, həmin Saziş 2016-cı il fevralın 23-də Tehran şəhərində imzalanıb. 2020-ci ildə baş verən 44 günlük Vətən müharibəsində Azərbaycan qazandığı parlaq Qələbə sayəsində ərazi bütövlüyünün hərbi-siyasi yolla bərpa edilməsinə nail oldu, o cümlədən işğal illərində Ermənistanın nəzarətində qalmış İranla dövlət sərhədlərinə çıxdı. Bundan sonra Araz çayı üzərində “Xudafərin” və “Qız Qalası” hidroqovşaqlarının və su elektrik stansiyalarının tikintisinin davam etdirilməsi, istismara qəbulu ilə əlaqədar bəzi məsələlər barədə Sərəncama əsasən, 2021-ci ildə “AzərEnerji” ASC Azərbaycan Respublikası tərəfindən sifarişçi kimi müəyyən edilib.

Hər iki layihə üzrə böyük iş həcmi yerinə yetirilib və mürəkkəb texniki məsələlər uğurla həllini tapıb. O cümlədən “Xudafərin” və “Qız Qalası” hidroqovşaqları və su elektrik stansiyaları layihəsi üzrə 2016-cı ildə imzalanmış müvafiq Hökumətlərarası Sazişə əsasən yaradılmış birgə Texniki Komissiya layihələrin icrası prosesindən irəli gələn məsələlərin müzakirəsi, razılaşdırılması və həllinə davamlı töhfələr verir.

**Hər iki ölkənin mənafeyi naminə ...**

“Xudafərin” və “Qız Qalası” layihələri hər iki ölkənin mənafeyi naminə inşa olunub. Bundan həm İran, həm də Azərbaycan böyük iqtisadi dvidentlər qazanacaqlar. İnfrastruktur obyektlərinin texniki parametrləri kifayət qədər genişdir. Su tutumu 1,6 milyard kubmetr olan “Xudafərin” və 56,75 milyon kubmetr su tutumuna malik “Qız Qalası” hidroqovşaqları, həmçinin hər bir tərəf üçün ümumi qoyuluş gücü 140 MVt olan “Xudafərin” və “Qız Qalası” su elektrik stansiyaları paritet əsasda ölkələrimizin maraqlarına xidmət etməklə Azərbaycan-İran təcrübəsində transsərhəd sulardan istifadənin örnəkləri olacaq. Enerji güclərinin də bərabər bölünməsi hər iki ölkəyə əlavə fayda verəcək.

Layihə təkcə Azərbaycana mövcud 252 min hektar torpaq sahəsi üzrə suvarmanın yaxşılaşdırılması və 12 min hektar yeni əkin sahələrinin suvarılması, illik 358 milyon kilovat-saat elektrik enerjisi istehsalı, 80 milyon kubmetr qaza qənaət imkanı yaradacaq.

İnfrastruktur obyektlərinin istifadəyə verilməsi mərasimində bildirildiyi kimi, bu, su diplomatiyası sahəsində bənzərsiz bir layihədir. Bu layihə, əslində, Azərbaycan və İrandan əlavə, digər qonşu ölkələrlə də su sahəsində əməkdaşlığıgı genişləndirməyə imkan verəcək. Təbii ki, Araz çayı boyunca yerləşən ölkələr sudan və bundan əldə olunan enerjidən istifadə sahəsində əməkdaşlığı daha da artırmalıdırlar. Yaxşı haldır ki, artıq bu istiqamətdə də Şimal-Cənub, Şərq-Qərb arasında memorandumlar imzalanır. Prezident İlham Əliyev layihənin icrasını yüksək dəyərləndirib. “Bu gün biz əyani şəkildə gördük ki, bu layihə doğrudan da böyük bilik, səriştə və təcrübə tələb edirdi” deyən dövlətimizin başçısı vurğulayıb: “Bu gün çox əlamətdar bir gündür. “Qız Qalası” hidroqovşağının açılışı və “Xudafərin” hidroqovşağının istismara verilməsi, hesab edirəm ki, tarixi hadisədir”.

*Mübariz ABDULLAYEV*

# Azərbaycan Cənubi Qafqazın şəksiz lideridir

## Hikmət Hacıyevlə ABŞ rəsmiləri ölkəmizin əhəmiyyətindən danışıblar



Azərbaycanın regionda yaratdığı yeni reallıqlar dünya birliyi tərəfindən maraqla izlənməkdədir. Bunun nəticəsidir ki, bir çox dövlətlər və təşkilatlar son dövrlərdə Azərbaycanla əlaqələrin yeni mərhələsini yaratmaq, bu istiqamətdə real addımlar atmaq niyyətlərini ortaya qoyurlar. Azərbaycan isə hər zaman özünün çoxvektorlu siyasi kursuna sadiqlik nümayiş etdirib - dövlətimiz bütün ölkələrlə milli maraqlar və bərabərhüquqlu əsaslarda qarşılıqlı əlaqələrin qurulmasına tərəfdardır. Geniş spektrli əlaqələrin daha da inkişaf etdirilməsi isə bütövlükdə, Cənubi Qafqaz üçün yeni əməkdaşlıq perspektivləri formalaşdırır.

Hazırda dövlətimiz üçün əsas prioritet Cənubi Qafqazda sülh və sabitliyin təmin olunması, o cümlədən Ermənistanla münasibətlərin normallşadırılmasıdır. Digət tərəfdən, mötəbər beynəlxalq tədbir olan COP29-un bu ilin noyabrında ölkəmizdə keçirilməsi Azərbaycanın dünyada yüksək nüfuzunun göstəricisidir.

Hazırda hər iki istiqamət üzrə Azərbaycan beynəlxalq birliyin diqqət mərkəzindədir. Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev də ABŞ-a səfəri zamanı bu məsələlər diqqət mərkəzində olub. Belə ki, Hikmət Hacıyev ABŞ Prezidentinin milli təhlükəsizlik məsələləri üzrə müşaviri Ceyk Sallivanla görüşüb. Bu barədə Prezidentin köməkçisi X səhifəsindəki paylaşımında bildirib: “Ceyk Sallivanla çox məzmunlu görüş keçirdik. Biz ölkələrimiz arasında əməkdaşlığı və əlaqələrimizin gələcək inkişafını nəzərdən keçirdik. Həmçinin regional və qlobal məsələlər müzakirə edilib. Biz həmçinin regionda sülhün bərqərar olması və Ermənistan-Azərbaycan münasibətlərinin normallaşması prosesi ilə bağlı fikir mübadiləsi apardıq”. 2020-ci il Vətən müharibəsi və 2023-cü il lokal antiterror tədbirləri nəticəsində ərazi bütövlüyünü və suverenliyini təmin edən Azərbaycan qarşıdakı mərhələdə regionda təhlükəsizlik arxitektirasının formalaşması istiqamətində addımlar atır. Bunu müşahidə edən dünya birliyi məsələnin mahiyyətini də obyektiv şəkildə dəyərləndirir. Azərbaycanın sülh üçün yaratdığı pozitiv imkanlar mühüm məqamlardan xəbər verir.

Təbii ki, məslənin real həllində maraqlı olan tərəflər həm də bu sülhün əbədiliyi və möhkəmliyi üçün səy göstərməlidir. Bu gün Azərbaycan bölgənin yeni inkişaf mərhələsi naminə məhz dayanıqlı və əbədi sülhü təbliğ edir. Bütün beynəlxalq aktorlar, o cümlədən da ABŞ anlayır ki, Azərbaycan Cənubi Qafqaz regionunun lideri və əsas siyasi-iqisadi oyunçusudur. Yeni dönəmdə Cənubi Qafqaz regionu ilə münasibətlərin sıxlaşdırılması, pozitiv gündəliyə töhfə verilməsi birbaşa Azərbaycanın iştirakı ilə reallaşır. Bu isə qarşılıqlı tərəfdaşlığı daha da gücləndirən amil kimi çıxış edir.

Qeyd edək ki, səfər çərçivəsində Hikmət Hacıyev ABŞ-ın dövlət katibinin siyasi məsələlər üzrə müavini Con Bass, dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisinin birinci müavini Yuri Kim və dövlət katibinin demokratiya, əmək və insan hüquqları üzrə köməkçisi Robert Cilkristlə də görüşüb. Prezidentin köməkçisi ABŞ Sülh İnstitutunda isə COP29, regional və qlobal məsələləri müzakirə edib.

*N. BAYRAMLI*

# İranda helikopter qəzası...

## Prezident İbrahim Rəisi həyatını itirdi

Xəbər verildiyi kimi İran Prezidenti İbrahim Rəisinin helikopteri qəzaya uğrayıb. Prezidenti daşıyan helikopter İran-Azərbaycan sərhədindən çox da uzaq olmayan Verzeqan şəhəri yaxınlığında sərt eniş edib. Helikopterdə Prezident İbrahim Rəisi ilə birgə Təbrizin cümə imamı Höccətülislam əl-Haşim, XİN başçısı Hüseyn Əmir Abdullahian, Şərqi Azərbaycan qubernatoru Malik Rəhməti, iki pilot və bir pilot köməkçisi, təhlükəsizlik qrupunun rəhbəri, mühafizəçilərdən biri olub. Qəza nəticəsində helikopterdə olan bütün şəxslər həyatını itirib.

**Azərbaycan Prezidenti başsağlığı verdi...**

Azərbaycan Prezidenti İlham Əliyev İran Prezidenti İbrahim Rəisinin faciəvi vəfatı ilə əlaqədar İran İslam Respublikasının Ali Rəhbəri Ayətullah Seyid Əli Xameneyiyə baş sağlığı məktubu ünvanlayıb: “Dost və qardaş İran İslam Respublikasına və xalqına üz vermiş ağır itki - İran İslam Respublikasının Prezidenti Seyid İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahiyanın və digər müşayiət edən şəxslərin helikopter qəzasında faciəli surətdə həlak olması xəbəri bizi olduqca sarsıtdı. Prezident Seyid İbrahim Rəisinin simasında İran xalqı bütün həyatını ölkəsinə fədakarlıqla və sədaqətlə xidmət etmiş görkəmli dövlət xadimini itirdi. Onun əziz xatirəsi qəlbimizdə daim yaşayacaqdır. Bu hüznlü gündə Uca Allahdan dost və qardaş İran xalqına səbir və dözüm diləyir, kədərinə şərik olduğumuzu bildirir, Sizə, həlak olanların ailələrinə və yaxınlarına, bütün xalqınıza şəxsən öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm”.

**Qəzada həlak olanlar kimlərdir?**

Qeyd edək ki, faciəvi qəza ilə bağlı İranda milli matəm elan edilib. Faciəvi hadisədə həyatını itirən İran Prezidenti Seyid İbrahim Rəisi 1960-cı ildə İranın Məşhəd şəhərində doğulmuşdu. Hüquq təhsili olan Rəisi bir müddət Tehranın baş prokuroru olaraq çalışıb. 2014-15-ci illərdə isə ölkənin baş prokuroru postunu tutub. 18 iyun 2021-ci ildə keçirilən 13-cü prezident seçkisinin rəsmi nəticələrinə görə, Rəisi 17 milyon 900 min səs qazanaraq seçkidə qələbə qazanmışdı və İran İslam Respublikasının 8-ci prezidenti seçilmişdi.

Qəzada həlak olan İranın xarici işlər naziri olmuş Hüseyn Əmir-Abdullahian isə 1964-cü ildə İranın Damğan şəhərində anadan olmuşdu. O, Tehran Universitetində Beynəlxalq Münasibətlər üzrə fəlsəfə doktoru dərəcəsini yiyələnib. Ərəb və ingilis dilində sərbəst danışıb. H.Əmir-Abdullahianın 20 ilə yaxın diplomatik təcrübəsi olub. O, əsasən, Bəhreyndə və İranın Körfəz ölkələrində yerləşən səfirliklərində çalışıb. 2011-2016-cı illərdə Ərəb və Afrika ölkələri üzrə xarici işlər nazirinin müavini vəzifəsini icra edib Hüseyn Əmir-Abdullahian 2021-ci ildə İranın xarici işlər naziri təyin edilmişdi.

Şərqi Azərbaycan əyalətinin qubernatoru vəzifəsində çalışmış Malik Rəhməti 1982-ci ildə doğulub. Rəhməti Tehran Xarəzmi Universitetində hüquq üzrə doktorluq dərəcəsini alıb. Bir müddət özəl hüquq fəaliyyəti ilə məşğul olub. Daha sonra İranın iqtisadi işlər və maliyyə nazirliklərində müxtəlif postlarda çalışıb. İbrahim Rəisinin prezident seçilməsindən sonra isə 13-cü hökumətdə Şərqi Azərbaycanın qubernatoru vəzifəsinə təyin edilib.

Təbrizin imam cüməsi Məhəmmədəli Al-Haşim 1962-ci ildə Təbriz şəhərində ruhani ailəsində doğulub. İlkin dini biliklərə Təbrizdə yiyələnən Məhəmmədəli Al-Haşim alimlik dərəcəsini İranın Qum şəhərində alıb. O, Təbrizin imam cüməsi olmamışdan əvvəl 2008-16-cı illərdə İranda “Ordunun Siyasi İdeoloji Təşkilatı”nın rəhbəri vəzifəsində çalışıb. 2016-cı ildən Təbrizin imam cüməsi olub.

**Rəisini Moxber, Abdullahianı isə Kəni əvəz edəcək**

İran konstitusiyasına görə 1-ci vitse-prezidenti Məhəmməd Moxber prezidentin vəzifəsini icra edəcək. Bununla yanaşı, 50 gün ərzində İranda yeni prezident seçkiləri keçiriləcək. Bunu İranın Ali Lideri Ayətulla Seyid Əli Xamenei İran prezidenti və onu müşayiət edən şəxslərin ölümü ilə əlaqədar verdiyi başsağlığı müraciətində bildirib. Xamenei bildirib ki, 1-ci vitse-prezident, məhkəmə sisteminin sədri və parlament sədri yeni prezident seçkilərinin keçirilməsi üçün addımlar atmalıdır.

İran hökumətinin sözçüsü Əli Bəhadori Cəhromini isə bildirib ki, mərhum XİN başçısı Hüseyn Əmir Abdullahianın vəzifəsini onun müavini Əli Baqeri Kəni icra edəcək. O qeyd edib ki, artıq bununla bağlı Nazirlər Kabinetinin iclası keçirilib və yekun qərar qəbul edilib. 20 may tarixli qərara əsasən, Əli Baqeri Kəni hökumətin xarici məsələlər üzrə əlaqələr komitəsinin məsul şəxsi təyin olunub.

Yeni gəlmişkən, Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) İrana başsağlığı verib. Bu barədə XİN-in “X” hesabında paylaşım edilib. Bildirilib ki,bu acı gündə Azərbaycan qardaş və dost İran İslam Respublikası ilə həmrəydir: “Helikopter qəzası zamanı İran İslam Respublikasının Prezidenti İbrahim Rəisinin, xarici işlər naziri Hüseyn Əmir Abdullahyanin, Şərqi Azərbaycan vilayətinin general-qubernatoru Malek Rəhmətinin, Təbrizin imamı Məhəmməd Əli Haşemin və onları müşayiət edən digər şəxslərin həlak olması ilə bağlı dəhşətli xəbər bizi dərindən kədərləndirdi. Faciəvi qəza zamanı bütün həlak olanların ailələrinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk”.

*SADİQ*

# Macarıstandan AŞPA-ya çağırış:

## Assambleya həmfikirlərin klubu deyil, Azərbaycan nümayəndə heyəti işinə qayıtmalıdır

İslamofobiyanın kök saldığı beynəlxalq təşkilatlardan biri olan Avropa Şurası Parlament Assambleyası (AŞPA) tərəfindən 2024-cü ilin yanvar ayında Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin qəbul və ratifikasiya olunmaması ölkəmizə qarşı qərəzin bariz nümunəsidir. Təşkilatda iki müsəlman ölkəsindən biri olan Azərbaycan AŞPA-dakı islamofob ritorikaya cavab olaraq təşkilatdakı fəaliyyətini dayandırdı.



Assambleya tərəfindən Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin qəbul edilməməsi müxtəlif ölkələr tərəfindən də etirazla qarşılanmaqdadır. Bu günlərdə Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto “Apha News”a müsahibəsində Azərbaycan nümayəndə heyətinin AŞPA-ya qayıtmasının vacibliyini toxunaraq bildirib ki, “AŞPA həmfikirlərin klubu deyil, burada hamı təmsil olunmalıdır. Əgər bir ölkə ilə bağlı narahatlıq və ya tənqid üçün əsas varsa, onunla birbaşa qarşılaşmalısınız. Hesab edirəm ki, avropalı siyasətçilər kifayət qədər cəsarətli deyillər. Başqalarının olmadığı yerdə onları tənqid etmək asandır. Niyə bu tənqid elə bilavasitə təşkilatın daxilində edilməsin?”.

Nazirdən bir müddət əvvəl, fevralın 22-də Macarıstan Milli Assambleyasının Avropa Şurası Parlament Assambleyasında nümayəndə heyətinin rəhbəri Jolt Nemet AŞPA-nın sədri Teodoros Rusopulosa qurumun qış sessiyası zamanı Azərbaycan nümayəndə heyətinin səlahiyyətlərinin ratifikasiya olunmamasına dair qəbul etdiyi 2527 (2004) saylı qətnamə ilə əlaqədar məktub ünvanlamışdı. Məktubda deyilirdi ki, Reykyavik Sammitində yenidən sadiqliyimizi bəyan etdiyimiz Avropa Şurasının Nizamnaməsinə uyğun olaraq, biz hamılıqla paylaşdığımız idealları, prinsipləri qorumaq və həyata keçirmək məqsədilə üzv dövlətlər arasında daha böyük birliyə nail olmağa çalışmalıyıq: “Bu birlik və onun gələcək perspektivləri üzv dövlətlərlə, onlar arasında həyata keçirilən dialoq vasitəsilə güclənir. Təəssüf ki, bu gün nümayəndə heyətlərinin qurumdan xaric edilməsi, həmçinin onlarla dialoqun dayandırılması halları bizim birgə səylərimizə zərbə vurduğundan Macarıstan nümayəndə heyəti adıçəkilən qətnamənin qəbulunda iştirak etməmək qərarına gəlib. Fikrimizcə, bu üsula yalnız bütün mövcud vasitələr tükəndikdə və heç bir nəticə əldə olunmadıqda, son çarə kimi müraciət edilməlidir”.

Jolt Nemetin məktubunda qeyd olunurdu ki, bu qərarın qəbul olunması ilə son bir neçə ildə təşkilatla Nazirlər Komitəsi arasında yaradılmış konstruktiv qurumlararası dialoq və ümumi maraq doğuran mövzularda davamlı məsləhətləşmələrin aparılması təcrübəsi də sarsılıb, qurumun iki orqanı arasında inamsızlığın yaranmasına gətirib çıxarıb. Bu mənada, Macarıstan parlamentariləri hesab edir ki, Azərbaycan nümayəndə heyətinin qurumda iştirakı məsələsi təcili qaydada həll olunmalıdır. “Biz əminik ki, aparılan son müzakirələr və Nazirlər Komitəsinin müvafiq qərarı da bu zərurəti əks etdirməkdədir”.

Macarıstan nümayəndə heyətinin rəhbəri Jolt Nemet AŞPA sədrini siyasi qruplarla birgə qətiyyətli addımlar atmağa və Azərbaycan parlament nümayəndə heyətinin təcili surətdə Parlament Assambleyasının işinə geri qayıtmasına icazə verməyə çağırmışdı.

Macarıstanla yanaşı, Türkiyə, Serbiya, QDİƏT PA və digərləri də Azərbaycan nümayəndə heyətinin etimadnaməsinin bərpası ilə bağlı AŞPA rəhbərliyinə çağırış etmişdilər. Maraqlı məqam bundan ibarətdir ki, bu çağırış edənlər arasında Avropa Şurası Nazirlər Komitəsinin rəhbəri də var.

Qeyd edək ki, Azərbaycanın nümayəndə heyəti AŞPA-nın işində həmişə fəal iştirak edib, müzakirələrə çıxarılan məsələlərə öz münasibətini bildirib, deputatlarımız qurumun komitə sədrləri, məruzəçiləri qismində çalışıblar. Azərbaycan nümayəndə heyətinin fəaliyyətində ən əsas məsələ bu beynəlxalq tribunadan Ermənistanın işğalçılıq siyasətinin ifşa olunması olub. Lakin bu məsələdə hər zaman Avropa parlamentarilərinin ikili standartları ilə üzləşmişik. Eyni zamanda, AŞPA-nın bəzi dairələrin əlində alətə çevrilməsi Azərbaycanın bu qurumdakı aktiv fəaliyyətinə obyektiv yanaşılmasına imkan verməyib. Yanvar ayında təşkilatın qəbul etdiyi qərəzli qərar da bunu təsdiqləyir. Aydındır ki, AŞPA-nın qərəzli qərarının gerçək səbəbi müsəlman ölkəsi olan Azərbaycanın öz ərazi bütövlüyünü və suverenliyini bərpa etməsidir. Lakin hər hansı ikili standartlar Azərbaycanın haqq yolunda irəliləməsinin qarşısını ala bilməz. Təşkilat gec-tez öz səhvini düzəltməli olacaq.

*NARDAR*

# Konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq

## Siyasi partiyalar arasında müzakirələr həmrəylik mühitini təşviq edir

Ölkəmizdə aparılan davamlı islahatlar iqtisadi-sosial, hərbi, eyni zamanda, siyasi-ictimai mühitdə mühüm irəliləyişlərə yol açıb. Xüsusilə, 2019-cu ildən etibarən start götürmüş siyasi islahatlar ölkədə yeni siyasi konfiqurasiyanın əsasını qoyub - bu, həm də yeni siyasi münasibətlər sistemi yaradıb. Ənənəyə çevrilmiş iqtidar-müxalifət görüşləri milli və qlobal çağırışların həllində mühüm ştrix kimi çıxış edir. Bu, həm də yeni siyasi konfiqurasiyanın uğurla təmin edilməsi, siyasi ialoq mühitinin gücləndirilməsi isə ölkədə siyasi birliyin daha da güclənməsinə yol açır. Təsadüfi deyil ki, hələ 2019-cu ildə yaradılan Prezident Adminstrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin uğurlu fəaliyyəti partiyalararası əlaqələrin güclənməsində əsaslı rol oynayıb. 2020-ci il Vətən müharibəsi dövründə, 2023-cü ildə antiterror tədbirləri zamanı Azərbaycanın siyasi palitrasının dövlətçilik və milli maraqlar çərçivəsindən çıxış etməsi isə bu birliyin, həmrəyliyin əyani təzahürünə çevrildi.

Bu xoş və əsaslı ənənə hazırda daha da sıx şəkildə davam etdirilir - artıq siyasi mühitin yeni standartlara, yeni çağırışlara uyğun inkişafı üçün əsaslı zəmin formalaşıb. Qəbul edilmiş yeni qanun siyasi partiyaların fəaliyyətində əsaslı dönüş və inkişaf yaradıb. Siyasi dialoqun uğurla inkişaf etdirilməsi isə bu mənada xüsusi əhəmiyyət daşıyır - mayın 16-da siyasi partiyalarla dövlət orqanları arasında konstruktiv əməkdaşlığın qurulması və inkişaf etdirilməsi məqsədilə Prezident Administrasiyası tərəfindən Milli Məclis Aparatının, Mərkəzi Seçki Komissiyasının, Hesablama Palatasının, Ədliyyə və Maliyyə nazirliklərinin, habelə 25 siyasi partiyanın nümayəndələrinin iştirakı ilə keiəçrilən görüş yeni siyasi münasibətlər sisteminin inkişafına əsaslı töhfə sayıla bilər.

Xatırladaq ki, Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev tədbirdə çıxış edərək dövlət siyasətində demokratik prinsip və dəyərlərə daim sadiq qalan Prezident İlham Əliyevin təşəbbüsü ilə ölkədə davamlı olaraq müxtəlif siyasi qüvvələr arasında konstruktiv əməkdaşlıq, sağlam siyasi dialoq və ümummilli məsələlərdə həmrəylik mühitinin təşviq olunduğunu bildirib. Eyni zamanda, tədbirdə müxtəlif dövlət orqanlarının nümayəndələri çıxış edərək "Siyasi partiyalar haqqında" Azərbaycan Respublikasının Qanunundan irəli gələn məsələlər barədə təmsil etdikləri orqanların aidiyyəti üzrə gördüyü işlər barədə məlumat veriblər.





**Tahir Kərimli: Azərbaycanın siyasi palitrasının mütləq əksəriyyəti bu görüşdə iştirak edirdi**

Görüşdə iştirak edən Vəhdət Partiyasının sədri, Milli Məclisin deputatı Tahir Kərimli qəzetimizə açıqlamasında bildirib ki, tədbir formatına görə seçilirdi - bu formatda görüş ilk dəfə baş tuturdu: "Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin təşkilatçılığı ilə baş tutan tədbirdə Milli Məclisin, Hesabalama Palamatasının, Maliyyə nazirliyinin, MSK-nın, Ədliyyə nazirliyinin nümayəndələrinin və 25 siyasi partiyanın nümayəndəsi iştirakı edirdi. Tədbir çox səmərəli keçdi. Qeyd edim ki, bu addım ölkəmizdəki çoxpartiyalı sistemin inkişafında yeni və böyük bir mərhələdir. Azərbaycanın siyasi palitrasının mütləq əksəriyyəti bu görüşdə iştirak edirdi. İştirak etməyən isə yalnız özünü kənarda saxlayır. Tədbirdə çox mədəni bir ortam vardı. Bu mənada, Prezident Administrasiyasının müvafiq şöbəsinin müdiri Ədalət Vəliyevin fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Hamıya fikirlərni bölüşmək üçün imkan yaradıldı, hər kəs öz fikirlərini səsləndirdi, təkliflərini verdi, qanunla bağlı müzakirələrdə iştirak etdi. Bu onu göstərir ki, Azərbaycanın siyasi partiyalarının mütləq əksəriyyəti dövlətçilik və milli məsələlərdə əməkdaşlıqda maraqlıdırlar. Bu həm də sabitliyin rəhni deməkdir. Təcrübədən bilirik, bir sıra xarici dövlətlər, bir sıra beynəlxalq güclər siyasi partiyalar, QHT-lər üzərindən öz maraqlarını təmin etməyə çalışır. Amma yaradılan milli birlik, siyasi həmrəylik bu kimi cəhdləri zərərsizləşdirir. Necə ki, 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın siyasi palitrası birlik nümayiş etdirərək bir yumruq kimi Ali Baş Komandanın ərafında birləşdi, ordumuzu və Ali Baş Komandanı dəstəklədi. Bu birlik bütün dünyanı təəccübləndirdi".

Partiya sədri bildirib ki, qarşıdan parlament seçkiləri gəlir və artıq bütün siyasi ab-hava buna köklənib. "Hər kəs sivil qaydada öz potensialını müəyyənləşdirir. "Siyasi partiyalar haqqında" yeni qanunun qəbulundan sonra bu görüş ilk belə geniş formatlı görüş idi. Hər kəs qanunun tətbiqi və nəticələri haqda danışdı. Mən də danışdım və bildirdim ki, siyasi partiyaların nümayəndələri artıq Milli Məclisidə komitə sədri, müavini səviyyəsində təmsil olunur, siyasi partiyalar qərargahla təmin edilir, bu kimi dialoqa xidmət edən görüşlər keçirilir. Bu çox müsbəti dəyərləndirilməlidir. Eyni zamanda, çox ciddi bir ənənənin əsasını qoyur", - deyə T.Kərimli vurğulayıb.



**Arzuxan Əlizadə: Belə görüşlər müsbət tendensiyadır**

Azərbaycan Milli İstiqlal Partiyasının sədri Arzuxan Əlizadə də görüşlə bağlı təəssüratlarını bölüşüb. O bildirib ki, AMİP tədbirin keçirilməsini təqdir edir: "Görüşdəki çıxışımda da bu məqamı bir daha vurğuladım. Partiyamız ümumilikdə ölkədə müxtəlif məsələlərlə bağlı siyasi təşkilatların bir araya gəlməsini, "dəyirmi masa" arxasında məsələlərin müzakirə etməsini, problemlərin həlli istiqamətlərini birgə müzakirə etməsini dəstəkləyir. Bu baxımdan da analoji tədbirlərin keçirilməsi tərəfimizdən yüksək qiymətləndirilir. Artıq bir neçə ildir ki, ölkədə yeni siyasi konfiqurasiya formalaşıb. 2019-cu ilin noyabrında Prezident Administrasiyasında Siyasi partiyalar və qanunverici hakimiyyət ilə əlaqələr şöbəsi yaradılıb. Ötən dövr ərzində siyasi partiyalarla əlaqələr genişləndirilib, bir sıra partiyaların problemləri həll edilib. Bu prosesdə təbii ki, yeni yaradılmış şöbənin və onun rəhbərliyinin kifayət qədər əhəmiyyətli rolu var. Mayın 16-da keçirilən tədbir də bu qəbildən əvvəllər keçirilmiş görüşlərin davamı kimi qiymətləndirilməlidir".

A.Əlizadə vurğulayıb ki, bu dəfə fərqlilik görüşdə bir sıra müvafiq dövlət strukturlarının rəsmilərinin də iştirak etməsindən qynaqlanırdı. "Tədbirdə MSK və digər strukturların nümayəndələri də təmsil olunurdular. Siyasi partiyalar haqqında" yeni qanunun tətbiqi və həmin qanunun çərçivəsində siyasi partiyaların bundan sonrakı fəaliyyətinin qurulması və bu kimi məsələlərlə bağlı izahatlar dinlənildi, eyni zamanda, gələcək münasibətlərin inkişafı ilə bağlı yol xəritəsi də göstərildi. Bu tip tədbirlərin keçirilməsi vacib hesab olundu. Ədalət Vəliyev çıxışında vurğuladı ki, bundan sonra da müxtəlif məsələlərlə bağlı bu çərçivədə tədbirlərin keçirilməsi planlaşdırılır. Bu kimi hallar isə siyasi partiyaların ölkənin siyasi gündəmindəki iştirakını daha da aktual edəcək. Bir daha vurğulayım ki, belə görüşlər müsbət tendensiyadır və bu cür davam edəcəksə müsbət qiymətləndiriləcək", - deyə AMİP sədri əlavə edib.



**Mirmahmud Mirəlioğlu: Tədbir aparılan uğurlu fəaliyyətin bir nəticəsidir**

Klassik Xalq Cəbhəsi Partiyasının sədri Mirmahmud Mirəlioğlu görüşü iqtidar ilə müxalifət arasında birgə müzakirələrin təşkili istiqamətində atılan növbəti addım kimi dəyərləndirib. Onun sözlərinə görə, bu tədbir aparılan uğurlu fəaliyyətin bir nəticəsidir: "Müzakirə olunan məsələ "Siyasi partiyalar haqqında" qanunun tətbiqi ilə bağlı idi. Qeyd edim ki, belə bir müzakirə ilk dəfədir təşkil olunurdu. Ümumiyyətlə, son illərdə siyasi dialoqun inkişafı ilə bağlı atılan addımları, Prezident Adminstrasiyasında müvafiq şöbənin yaradılmasını, şöbənin fəaliyyətini müsbət dəyərləndiririk. Tədbirdə iştirak etdik, fikirlərimizi də bölüşdük. Bu görüşlərin davamlı olması vacibdir. Eyni zamanda, nəticə verməlidir. İrəli sürülən təkdliflər nəzərə alınmalıdır və bu nəticə bu işi daha səmərəli edəcək. Təbii ki, müzakirə olunası məsələlər var. Həmin məsələlərlə bağlı fikir mübadiləsi aparılmalı, təkliflər səsləndirilməlidir. Bu tip görüşlər həm də partiyalararası münasibətlərin get-gedə güclənməsinə yol açır. Etiraf edək ki, bu vaxta qədər partiyalararası münasibətlər elə ürəkaçan deyildi. Son illər bu daha çox nəzərə çarpırdı. Belə görüşlərin müsbət tərəflərindən biri də odur ki, partiya rəhbərləri artıq bir masa arxasında oturur, bir-birlərinin fikirlərini eşidirlər, bir-biri ilə danışırlar".

*Pərviz SADAYOĞLU*

# Əli Kərimlinin yeni spekulyasiyası

## AXCP bu dəfə parlament seçkilərini "hədəfə alır"...

Son dövrlərdə Cənubi Qafqazda baş verən siyasi kataklizmlərin miqyası genişlənməkdədir. Həm Gürcüstanda, həm də Ermənistanda müxalifətin "etiraz aksiyaları"nın kökündə yatan səbəblər ortaya maraqlı mənzərə çıxarır - bir çox siyasi analitiklərin də vurğuladığı kimi hər iki ölkədəki sabitliyi pozmağa çalışan müxalif qüvvələrin xarici güclərlə əlaqəsi, stimullaşması, fərqli dövlətlərin maraqlarına xidmət etməsi ilk baxışdan diqqəti cəlb edir. Bu, həmin ölkələrdəki siyasi müxalifətin milli maraqlardan kənar çıxış etməsini şərtləndirib. Beləliklə, ortada olan məqamlar bu ölkələrdəki siyasi qarşıdurmaların əsasında heç də səmimi mübarizənin deyil, müxtəlif təsirlərin dayandığını irəli sürməyə əsas verir.

Azərbaycanda isə tam fərqli bir siyasi mənzərə formalaşıb - 2020-ci ildən etibarən ölkədə formalaşan yeni siyasi konfiqurasiya iqtidar - müxalifət münasibətlərində yeni zəmin yaradıb. Xüsusilə, siyasi dialoqun güclənməsi bu münasibətləri daha da irəliyə aparır. Artıq ölkədə siyasi qüvvələr bir masa arxasında öz problemlərinin müzakirəsinə yığışır, qanunvericiliklə bağlı müzakirələr formalaşdırır və orada öz fikirlərini ifadə edir. Bu isə nəticə etibarı ilə siyasi müxalifətin də dövlətin inkişfı prosesinə töhfə vermək arzusunu, sivil metodlarla mübarizə aparmaq istəyini özündə ehtiva edir.

Maraqlıdır ki, bu kimi sivil münasibətləri, müzakirələri "qəbul etməyən" bəzi redikül azlıq nümayəndələri özlərini prosesdən kənar saxlayırlar. AXCP və "milli şura" adlanan amorf birlik ölkədəki sabit siyasi mühitə xələl vurmaq üçün bütün yollara baş vururlar. İlk növbədə qeyd olunmalıdır ki, onların əsl məqsədi xarici antimilli fondlar, güclər və ən əsası ermni lobbisi tərəfindən verilən maliyyəni əldə etməkdir - bunun üçün isə həm AXCP, həm də qondarma "şura" bütün addımlarında dövlət maraqlarının əleyhinə, milli mənafenin ziddinə çıxışlar edirlər. Təsadüfi deyil ki, son dövrlərdə müzakirə predmeti olan parlament seçkiləri ilə bağlı məsələ AXCP üçün yeni spekulyasiya vasitəsinə çevrilib - belə ki, parlament seçkisinin vaxtının dəyişdirilməsi məsələsi aktuallıq daşıyır ki, burada da obyektiv səbəblər mövcuddur. Parlament seçkiləri bu ilin noyabrında reallaşmalıdır ki, həmin dövr ölkəmizdə keçiriləcək beynəlxalq sammitlə - COP29 ilə üst-üstə düşür. Bir müddət öncə MSK sədri Məzahir Pənahov bildirmişdi ki, bu səbəbdən də parlament seçkilərinin qabağa çəkilmə ehtimalı var. Redikül azlıq öz gücsüzlüyünü örtbasdır etmək, bu dəfə də hansısa bir yolla seçkidən "yayınmaq üçün" hay-həşir salır. Halbuki, AXCP-nin əsl niyyəti hər kəsə məlumlur. Bu məsələ üzərindən "siyasi şou" yaratmağa çalışan AXCP isə yenə də hər zaman olduğu kimi "ürək bulandırmağa" çalışır. Ölkədəki sabit və milli maraqlara yönəlik, ən əsası sivil siyasi mənzərədən narahatlıq keçirən xarici qüvvələrin təsiri ilə sosial şəbəkələrdə özü kimi ucuz "postlar" paylaşan Əli Kərimli və dəstəsi seçki məsələsini siyasi spekülyasiya vasitəsinə çevirməyə çalışır - Ə.Kərimlinin "mitinq" iddiasının gülünclüyü və əsassız olması isə ən birinci onun özünə "aydındır". Axı, AXCP və ya "milli şura" hansı sosial elektorata arxayındır? Digər tərəfdən, onların mitinq müraciətinə qanuna əsasən cavab verilib - bu mövzunu yenidən "gündəmə" gətirmək istəyən bu qüvvələrin əsl məqsədi nədir?

Təbi ki, məqsəd bəlli və illərdir davam edən ənənənin davamıdır. Ə.Kərimli xidmət etdiyi dairələrdən aldığı "qrantları" "haqq etmək" üçün bu kimi siyasi "priyomlara" əl atır. Bundan öncəki seçkilərdən yayınan AXCP və "milli şura" yenə də araqarışdırmaq, syisai qarışıqlıq yaratmaq niyyətindədir. Amma onun bu niyyəti elə arzu olaraq qalacaq - Azərbaycan xalqı və siyasi palitrası Ə.Kərimlinin və ətrafındakı azlığın xəyanətkar simasına yaxından bələddir. Vaxtilə Şuşa və Laçının işğalı üzərində özünün hakimiyyət oyunlarını quranlar bu gün Azərbaycanın əldə etdiyi Zəfərə, qələbəyə, siyasi sabitliyə və iqtisadi inkişafa kölgə salmağa çalışırlar. Amma onların bu niyyəti də digərləri kimi iflasa məhkumdur. Ə.Kərimli və başçılıq etdiyi dəstə anlamalıdır ki, onlar antimilli "çağırışları" ilə yalnız özlərini aldada bilərlər...

*MƏNSUR*

# Gürcüstan hadisələrində "Fransa izi"

## Paris Ermənistanla Gürcüstanı Yeni Kaledoniyaya çevirmək istəyir?



Fransanın indiki mövqeyi Cənubi Qafqazda sülhə və təhlükəsizliyə böyük təhdiddir. Rəsmi Paris beynəlxalq hüquqa hörmətsizlik edir, bəşəri dəyərləri ayaqlar altına atır. Məlumdur ki, hazırda bu ölkə müstəmləkə siyasəti səbəbindən ciddi problemlərlə üzləşib. Ona görə də, rəsmi Paris xarici və daxili siyasətində ciddi böhran yaşamaqdadır. Təsadüfi deyil ki, hazırda bu dövlət keçmiş müstəmləkələrindən qovulur. Həmin bölgələrdə Parisə qarşı etiraz aksiyaları səngimir, Yelisey sarayına qarşı çıxışlar, narazılıqlar günü-gündən daha da artır. Niger, Qabon və s. bölgələrdən qovulan Fransaya qarşı etirazların artdığı keçmiş müstəmləkələrdən biri də Yeni Kaledoniyadır. Bu bölgədə Fransa müstəmləkəçiliyinə qarşı etiraz aksiyaları artıq davamlı xarakter alıb və hər gün daha da güclənir. Fransa uzun illər həyata keçirdiyi müstəmləkəçilik siyasətinin tərkib hissəsi kimi yerli xalqlara qarşı insanlıq əleyhinə cinayətlər törətməkdə davam edir və tarixdə milyonlarla günahsız insanın vəhşicəsinə qətlə yetirilməsinə siyasətinə "sadiqliyini" göstərir.

**Zurabişvili Makronu niyə ölkəsinə dəvət edir?**

Bu gün öz müstəmləkəçi siyasətinin acı nəticələrini yaşayan Fransa dünyanın müxtəlif ölkələrində qarışıqlıq yaratmaq cəhdlərindən də əl çəkmək istəmir. Bunu Cənubi Qafqaz regionunun timsalında da görmək olar. Belə ki, Paris Ermənistanın vasitəsilə regionda yerləşməyə çalışır. Ermənistanın silahlandırılması isə Makron hökumətinin bölgədə müharibəni yenidən alovlandırmaq məqsədi güddüyünü təsdiqləyir. Avropa İttifaqının Müşahidə Missiyası adı altında özününn xüsusi xidmət orqanlarının təmsilçilərini Ermənistanda yerləşdirən rəsmi Paris bununla da məkrli planlarını həyata keçirməyə çalışır.

Bütün bunların fonunda son hadisələr Gürcüstanda baş verən daxili gərginliyin qızışdırılmasında da Fransanın əlinin olması üzə çıxıb. "Xarici təsirlərin şəffaflığı haqqında" qanuna veto qoyan Gürcüstan Prezidenti Salomi Zurabişvilinin daxili qeyri-sabitlik şəraitində Fransa Prezidenti Emmanuel Makronu ölkəsinə səfərə dəvət etməsi buna bir işarədir. Belə ki, Zurabişvili Fransanın "La Tribune Dimanche" nəşrinə açıqlamasında bildirib ki, "Mən Prezident Makrona yazdım ki, onu 26 mayda Gürcüstanın Müstəqillik günündə gözləyirəm... Risk altında olan təkcə Gürcüstan deyil, bu, Qafqazın tamamilə Sovet boyunduruğu mentalitetindən və Rusiyanın təsirindən çıxarılması məsələsidir".

**Mariya Zaxarova: Əgər Paris kimlərisə azad edə bilərsə, bu, Fransa boyunduruğundan qurtulan kanaklar olacaq**

Görünən odur ki, Fransa təkcə Ermənistanı deyil, Gürcüstanı da özünün təsir dairəsinə daxil etmək istəyir. Hər halda, Zurabişvili öz mesajı ilə sətiraltı da olsa buna işarə edib. Məsələyə Rusiya tərəfinin cavabı isə özünü çox gözlətməyib. Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova əvvəlcə Moskvanın Fransa hökumətini Yeni Kaledoniya xalqına qarşı zorakılıqdan çəkinməyə və onun hüquq və azadlıqlarını təmin etməyə çağırdığını bildirib. O, həmçinin diqqəti mayın 13-də keçirilən etiraz aksiyası zamanı polisin iştirakçılara zorakılıq tətbiq etməsinə yönəldib. Zaxarova vurğulayıb ki, ölkəsi dinc əhaliyə analoji yanaşmanı qətiyyətlə pisləyir.

Rusiya XİN-in nümayəndəsi Gürcüstan Prezidenti Salome Zurabişvilinin Fransa prezidenti Emmanuel Makronu "Qafqazı nəhayət ki, sovet boyunduruğundan və Rusiyanın təsirindən azad etmək məqsədi ilə" mayın 26-da Gürcüstanın Müstəqillik Gününə dəvət etməsinə diqqət çəkərək deyib: "Paris əsəbi halda yeni Yeni Kaledoniya üçün yer axtarır, Gürcüstan və Ermənistan arasında seçim edir. Əgər Paris kimlərisə azad edə bilərsə, bu, Fransa boyunduruğundan qurtulan kanaklar olacaq".

Beləliklə, Fransanın Cənubi Qafqazla bağlı çirkin planları üzə çıxmaqdadır. Amma bütün bunlar rəsmi Parisin özü üçün ciddi problemlər yaradacaq. Yeni Kaledoniyada baş verən hadisələr buna nümunədir.

*Nardar BAYRAMLI*

# Azad ərazilər turizmin ən cəlbedici ünvanına çevrilir

Məlum olduğu kimi Zəngilan rayonunun Ağalı kəndində "Ağalı" hoteli istifadəyə verilib. Yeni infrastruktur və xidmət obyekti Azərbaycanın işğaldan azad edilmiş ərazilərində turizm potensialının növbəti təzahürü olmaqla, bu bölgənin həm də böyükşəbəkəli turizm mərkəzinə çevrilməsinin göstəricisi hesab edilir. Nəzərə alsaq ki, Zəngilanda Beynəlxalq Hava Limanı da istifadəyə verilib, bu da turizm xidmətində ən mühüm amillərdən biri olan nəqliyyat infrastrukturunun xüsusi önəmi fonunda xarici turistlərin axını üçün geniş imkanlar deməkdir.

Bu gün işğaldan azad olunmuş ərazilərimiz öz füsunkar təbiəti, yeraltı və yerüstü sərvətləri, geniş turizm imkanları ilə bütün qonaqların diqqətini cəlb edir. Bölgədə müalicəvi turizm, istirahət turizmi, ekoturizm və turizmin digər növlərinin inkişaf etdirilməsi üçün böyük imkanlar var. Bu bölgənin geniş dağ silsiləsi ilə əhatə olunması, Laçın və Kəlbəcərdən Naxçıvana qədər böyük bir ərazini tutan Zəngəzur yaylasının zəngin təbiəti, Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonlarının ekologiyası dağ və ekoturizm üçün ən münbit zonadır. Eləcə də Şuşa, Xocavənd, Xocalı rayonları və Xankəndi şəhəri zəngin tarixi-memarlıq abidələri ilə Azərbaycanın və dünyanın mədəniyyət salnaməsidir. Bu ərazilərdə tarixi-mədəni turizmin inkişafı üçün hədsiz dərəcədə potensiallar mövcuddur.




Mədəniyyət beşiyi hesab olunan Şuşada əsasən festivalların keçirilməsi və cəmi 2-3 il ərzində "Qarabağ" və "Xarıbülbül" hotellərinin açılışı bu şəhərin turizmin ən zəngin mərkəzinə çevrildiyini göstərir. Eləcə də Xocavənd rayonu da xüsusi turizm potensialına malikdir. Tuğ və Hadrutun şərab marşrutuna salınması daha uyğundur. Məşhur Azıx mağarası, Tağlar mağarası da bu ərazidə yerləşir. Suqovuşanla bağlı da müəyyən planlar mövcuddur. Hazırda Tuğ, Hadrut, Daşaltıda turizm infrastrukturunun yaradılması üçün inkişaf konsepsiyaları üzrə layihələndirmə işlərinin aparılması da təsadüfi deyil. Eləcə də "Tuğ" Dövlət Tarix-Memarlıq və Təbiət Qoruğunun yaradılması da bu starteji məqsədə xidmət edir. Təbii ehtiyatlarla zəngin olan Qarabağda həm də müxtəlif növ ekstremal turizm, aqroturizm, "yaşıl turizm" təşkil etmək olar. Bütün bunlar turizmin inkişafı üçün geniş perspektivlər yaradır. Kəlbəcər rayonu qış turizmi üçün ideal məkandır. İşğaldan azad olunmuş ərazilərimizdə turizm infrastrukturunun qarşılıqlı əlaqə şəklində qurulması vacibdir. Şuşa Azərbaycan turizminin simvol şəhərlərindən biri olacaq. Azərbaycan mədəniyyətinin incisi olan Şuşanın tarixi abidələri, özünəməxsus arxitekturası yeni turizm marşrutlarının yaradılmasına imkan verə bilər. Kifayət qədər geniş rekreasiya imkanlarına malik olan Laçındakı İlıqsu müalicəvi əhəmiyyətli mineral bulağı, zəngin flora və faunaya sahib, sahəsi 21 min hektardan çox olan Laçın yasaqlığı bu ərazilərin turizm imkanlarını genişləndirəcək. Hələ işğaldan əvvəl Kəlbəcərin İstisu qəsəbəsində Ümumittifaq əhəmiyyətli 2 böyük sanatoriya fəaliyyət göstərirdi. Hər il orada 50 min nəfər müalicə olunur və istirahət edirdi. Buradakı "İstisu" mineral suları ilə insanın həm xarici, həm də daxili xəstəliklərini müalicə etmək mümkün idi. Hətta orada kurort və mineral sudoldurma zavodu da tikilmişdi. Mütəxəssislərin fikrincə, Kəlbəcərin relyefi dünyanın ən heyrətamiz kanatlarının inşasına, ən maraqlı turizm xidmətlərinin qurulmasına imkan verir. Burada gələcəkdə Qafqazın ən böyük turizm mərkəzini yaratmaq mümkündür.

Qarabağda 3 hava limanının tikilməsi də təsadüfi deyildir. Füzuli, Zəngilan və Laçın Hava Limanları həm də turizm tranzitinin əsas açarı kimi nəzərə alınıb. Məhz bu zəngin imkanları nəzərə alan hökumət bu ərazilərin turizm potensialının səmərəli istifadəsi, regionun rəqabət qabiliyyətli turizm məkanına çevrilməsi üçün geniş tədbirlər, turizm infrastrukturları və xidmət şəbəkələrinin yaradılması istiqamətində intensiv işlər görülməkdədir. "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"da nəzərdə tutulan əsas prioritetlərdən biri bu bölgədə turizmin müxtəlif növlərinin inkişafı zəruri təminatların yaradılmasıdır. Bu məqsədlə turizm sənayesinə müxtəlif iqtisadi stimullar verilib, turizm sektoru vergilərdən azad olunub. Bu ərazilərə investisiya qoyuluşunu artırmaq üçün müxtəlif dövlət dəstəyi tədbirləri müəyyən olunub.

Dövlət Turizm Agentliyi tərəfindən işğaldan azad edilmiş ərazilərin turizm inkişaf strategiyası və konsepsiyası hazırlanmış və tədbirlər planına uyğun olaraq davamlı işlər görülür, turizm marşrutları hazırlanır. Eyni zamanda, yerli və xarici turistlərin artıq bu bölgəyə səfərləri üçün turpaketlər təşkil olunmaqdadır. Həmçinin, işğaldan azad edilmiş ərazilərinin turizm potensialının tanıdılması istiqamətində də təşviqat işləri gücləndirilib, bir müddət əvvəl Rusiyada keçirilən 30-cu "MITT - beynəlxalq turizm və qonaqpərvərlik sənayesi" sərgisində təqdim olunub. Cənubi Asiya ölkələrinin iştirak etdiyi "Travel Meet Asia 2020" və "Tour Expo Tourism Fair" tədbirlərində Qarabağ və onun turizm imkanları təbliğ edilib. Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində keçirilən "Gulf Travel Show" sərgisində işğalçılardan azad edilmiş Qarabağ bölgəsinin turizm potensialına dair geniş təqdimat keçirilib.

Beləliklə, Qarabağ və Şərqi-Zəngəzurda hər istifadəyə verilən turizm obyekti yüzlərlə turistin gəlişi deməkdir. Proqnozlara görə, yaxın illərdə daxili və xarici turistlərlə birgə bu bölgəyə 1 milyon turistin səyahət edəcəyi gözlənilir. Bu baxımdan Zəngilanda yeni açılışı olan hotel həmin strateji konsepsiyanın mühüm hissəsi kimi bölgəyə turizm axınlarına qapı açacaq. Eyni zamanda, həmin hotel və azad edilmiş ərazilərdə digər turizm obyektləri turizm sənayesinin yenidən formalaşmasını təşviq edərək regionda böyük bir turizm bumunu formalaşdıracaq, bu isə həmin rayonlarda məşğulluğun təmin olunmasında və əhalinin gəlirinin artmasına səbəb olacaqdır.

***E.CƏFƏRLİ***

# Türkiyəli nazirin Zəngəzur anonsu..

## Dəhlizin tam fəaliyyət göstərməsi 2028-2029-cu illərdə mümkün olacaq

44 günlük Vətən müharibəsində Azərbaycanın qələbə qazanmasından sonra regionda yaranan yeni reallıqlar fonunda Zəngəzur dəhlizinin açılması təşəbbüsləri mühüm yer tutmaqdadır. Bu dəhliz Avropa ilə Asiya arasında iqtisadi-ticarət əlaqələrini daha da genişləndirməklə yanaşı, geosiyasi əhəmiyyət daşıyır. Bu amil həm də Azərbaycanla Ermənistanın münasibətlərinin normallaşması prosesinə müsbət təsir göstərə bilər.

Dünyanın bir çox aparıcı dövlətlərinin də dəstəklədiyi bu layihənin gerçəkləşməsi isə rəsmi İrəvanın qeyri-konstruktiv mövqeyi səbəbindən ləngiyir. Ermənistanın məqsədi Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə kommunikasiyanın bərpasına mümkün qədər əngəl olmaqdır. Lakin rəsmi İrəvan bu layihənin gerçəkləşməsinin qarşısını almaq iqtidarında deyil. Nəzərə almaq lazımdır ki, 10 noyabr 2020-ci il üçtərəfli Bəyanatının 9-cu bəndində bu məsələ öz əksini tapır. Həmin bənddə qeyd olunur: "Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirir. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək".




Göründüyü kimi, indiki Ermənistanın ərazisində yerləşən Zəngəzurdan hərəkət maneəsiz olmalıdır.

**Türkiyəli nazirin mesajları ...**

Qardaş Türkiyə də bu dəhlizin reallığa çevrilməsi üçün fəal təşəbbüslərlə çıxış edir. Bu günlərdə Türkiyənin nəqliyyat və infrastruktur naziri Abdulkadir Uraloğlu "TGRT Haber" telekanalına müsahibəsində söyləyib ki, Qars şəhərini Naxçıvanla sərhəd olan İğdır vilayəti ilə birləşdirəcək dəmir yolunun tikintisi üzrə işlərə bu ilin sonunda başlamaq və beş il ərzində başa çatdırılması nəzərdə tutulur. Bu xətt Zəngəzur dəhlizinin mühüm komponentini işə salmağa imkan verəcək. Nazir xatırladıb ki, Türkiyənin şərqində 224 kilometrlik dəmir yolunun tikintisi üçün tender bu ilin əvvəlində elan edilib və hazırda layihənin maliyyələşdirilməsi ilə bağlı danışıqlar aparılır: "Qarsdan Azərbaycanla sərhəddə yerləşən Dilucu sərhəd-keçid məntəqəsinə qədər məsafədə tikinti işləri təxminən 5 il çəkəcək". Nazir, eyni zamanda, Azərbaycanın işğaldan azad edilmiş rayonlarında dəmir yollarının tikintisinin başa çatdırılmasının da mühüm əhəmiyyət kəsb etiyini vurğulayıb.

**Layihə nə vaxt reallaşa bilər?**

Türkiyəli nazirin fikrincə nəqliyyat dəhlizinin tam şəkildə fəaliyyət göstərməsi 2028-2029-cu illərdə mümkün olacaq. "Bu marşrut Türkiyə və bütün region üçün həm iqtisadi, həm də strateji baxımdan əhəmiyyətlidir". O, Zəngəzur dəhlizinin dünya ticarəti üçün əhəmiyyətindən də bəhs edib, həmçinin Süveyş kanalında və Qırmızı dənizdə baş verən insidentlərlə əlaqədar qlobal ticarətdə yaranan riskləri vurğulayıb: "Zəngəzur dəhlizinin açılması nəticəsində Asiya ilə Avropa arasında iqtisadi əlaqələrin qurulması üçün yeni mühüm alternativ meydana çıxacaq".

Abdulkadir Uraloğlunun sözlərindən də aydın olur ki, Zəngəzur dəhlizi

təkcə Azərbaycan üçün deyil, bütün ətraf ölkələr üçün böyük önəm kəsb edir. Son illərdə Azərbaycan Avrasiyanın yeni nəqliyyat xəritəsini formalaşdırıb və hazırda bu geniş coğrafiyanın bütün əsas yolları məhz ölkəmizdə kəsişir. Zəngəzur dəhlizi bu bağlantıda yeni və çox mühüm həlqə təşkil edəcək. Dəhliz boyunca yaradılacaq dəmir və avtomobil yolları məhz ölkəmizin ərazisində Şərq-Qərb və Şimal-Cənub marşrutlarına inteqrasiya ediləcək.

**Ermənistan Zəngəzur dəhlizinin açılmasına mane olarsa...**

Dünyanın aparıcı dövlətləri və müvafiq beynəlxalq təşkilatlar da hesab edir ki, bu layihə Avropa ilə Asiya arasında ticarət əlaqələrini daha da genişləndirəcək. Hazırda dünyada baş verən mürəkkəb proseslər, xüsusilə Rusiya-Ukrayna müharibəsi bu ölkələrin ərazisindən gedən ticarət yolları üçün risk yaradır. Bu baxımdan, Zəngəzur dəhlizi təhlükəsiz marşrut kimi daha etibarlıdır. Digər tərəfdən, bu dəhliz Avropa ilə Asiya arasında məsafə baxımdan daha yaxın və tariflərə görə də sərfəli hesab edilir. Azərbaycanın son illərdə Xəzərdə qurduğu müasir Ələt Beynəlxalq Ticarət limanın, həmçinin işğaldan azad edilmiş ərazilərdə inşa olunan beynəlxalq hava limanlarının yaradacağı imkanlarını da nəzərə alsaq, deyə bilərik ki, Zəngəzur dəhlizi beynəlxalq səviyyədə daşımalar üçün ən cəlbedici marşrutlardan birinə çevriləcək. Bütün bunlar isə respublikamızın perspektivdə etibarlı tranzit ölkəsi kimi böyük həcmlərdə gəlirlər qazanmasına səbəb olacaq.

Bütövlükdə, Zəngəzur dəhlizinin açılması regionda sabitlik, etimad və əməkdaşlıq mühitinin möhkəmlənməsi üçün bir imkandır.

Nəzərə almaq lazımdır ki, Ermənistan da Zəngəzur dəhlizi vasitəsilə iqtisadi dividentlər qazana bilər. Lakin rəsmi İrəvan dəhlizin özü üçün nə qədər əhəmiyyətli olduğunu anlamır. Bu səbəbdən də ermənilər bu mövzuda əsassız və qeyri-ciddi bəyanatlar verirlər. Paşinyanın ortaya atdığı "Sülh kəsişməsi layihəsi" isə beynəlxalq ictimaiyyəti aldatmaq məqsədi daşıyır. Ona görə də, rəsmi İrəvan cılız iddialarından əl çəkməli və qazana biləcəyi iqtisadi dividentlərdən özünü məhrum etməməlidir. Əks təqdirdə, yalnız Azərbaycanla İran arasında razılaşdırılmış layihə icra olunacaq. Ermənistan isə dalan dövlət olaraq qalacaq.

***Nardar BAYRAMLI***

# Azərbaycan və Tacikistan arasında 8 saziş imzalanıb

Bakıda Azərbaycan-Tacikistan Biznes Forumu keçirilib. İqtisadiyyat naziri Mikayıl Cabbarovun və Tacikistanın sənaye və yeni texnologiyalar naziri Şerali Kabirin iştirakı ilə baş tutan tədbirdə hər iki ölkənin iş adamları, biznes strukturlarının təmsilçiləri və dövlət orqanlarının nümayəndələri iştirak edirlər. Forumun əsas məqsədi ölkələrimiz arasında iqtisadi-ticarət əlaqələrini genişləndirmək, iş adamlarının əməkdaşlığı üçün münbit şərait yaratmaqdan ibarətdir. Forumda kənd təsərrüfatı, sənaye, nəqliyyat, emal sahələrində fəaliyyət göstərən iş adamları və şirkət rəhbərləri iştirak ediblər.




İqtisadiyyat naziri Mikayil Cabbarov iki ölkə arasında iqtisadi əlaqələrdən danışarkən qeyd edib ki, Tacikistanın Orta Dəhlizdən istifadə etməsi nəql olunan yüklərin həcminin artmasına və zamanında mənzil başına çatdırılmasına səbəb olur. "Ötən il Tacikistan Orta Dəhlizlə 2,4 milyon ton yük ixrac edib.

Tacikistan ilə Azərbaycan müxtəlif sahələrdə, o cümlədən dağ-mədən yataqlarının işlənməsi sahəsində əməkdaşlıq etmək imkanına malikdir və Azərbaycan şirkətlərini bu sahəyə dəvət edir. Dağ-mədən sektorunda Tacikistanda 800 filiz yatağından yalnız 100-ü istismar olunur.

Tacikistan "yaşıl enerji"yə də maraq göstərir və bərpa olunan enerji istehsalı umumu istehsalda xüsusi yer tutur. Belə ki, Tacikistanda elektrik enerjisinə olan tələbatın 95 faizi su elektrik stansiyalarında istehsal olunan enerji hesabına ödənilir: "Alternativ enerji istehsalı üçün Tacikistanın böyük potensialı var. Təbii şərait günəş, külək enerjisinin əldə olunmasına imkanlar verir. Azərbaycan şirkətləri bu sahələrə investisiya yatıra bilərlər.

Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev bildirib ki, Tacikistanın qida məhsullarının idxalı 950 milyon dollar civarındadır. Qeyd edib ki, iki ölkə arasında illik ticarət dövriyyəsinin həcmi 6 milyon dollardır ki, bu da çox azdır. Hər iki ölkənin iqtisadi potensialı ticarət dövriyyəsinin artırılmasına imkan verir. Y.Abdullayev vurğulayıb ki,Tacikistan ilə qida məhsullarının idxal və ixracını artırmaqla ticarət dövriyyəsinin də yüksəlməsinə maraq göstəririk. Tacikistana idxalın həcmini artırmaq niyyətimiz var.

Biznes Forum çərçivəsində şirkətlər arasında ticarət, dağ-mədən və kənd təsərrüfatı sahələrində əməkdaşlığa dair 8 sənəd imzalanıb. "Talko" ASC ilə "Azəralüminium" ASC arasında Anlaşma Memorandumu imzalanıb. Tacikistan hökuməti yanında İxrac Agentliyi olan "Tajaqropromeksport" Dövlət Unitar Müəssisəsi və "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında qarşılıqlı ticarət sahəsində əməkdaşlıq haqqında Saziş imzalanıb.Bununla yanaşı, "Lesinvest" MMC (Tacikistan) və "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında pambıq yağının satışı və tekstil istehsalı sahəsində təcrübə mübadiləsi sahəsində, "Vodii Zarrin Aqrar Alyansı" MMC (Tacikistan) və "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında pambıqçılıq, xam pambıq emalı və tekstil istehsalı sahəsində, "Marmari" MMC (Tacikistan) və "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında pambıqçılıq, o cümlədən pambıq toxumlarının emalı sahəsində, "Sir-Daryo" MMC (Tacikistan) ilə "Azərbaycan Sənaye Korporasiyası" ASC arasında ixrac-idxal əməliyyatları sahəsində, "Bolluq" (Tacikistan) və "Qanç 2000" (Azərbaycan) şirkətləri arasında əməkdaşlıq və qarşılıqlı anlaşma haqqında, Tacikistanın "OBI - FAYZOBOD" şirkəti ilə Azərbaycanın "Universal Trade" şirkəti arasında konsiqnasiya müqaviləsi imzalanıb.

# Azərbaycan Avropa Regional Konfransının 34-cü sessiyasında

Kənd Təsərrüfatı Nazirliyinin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, tədbirdə 53 ölkədən dövlət qurumları, özəl sektor, beynəlxalq təşkilatların nümayəndələri və aqrar sahədə çalışan mütəxəssislər iştirak ediblər.Azərbaycanı beynəlxalq tədbirdə kənd təsərrüfatı nazirinin müavini İlhamə Qədimova, Aqrar Kredit və İnkişaf Agentliyinin sədr müavini Leyla Cabbarlı, Azərbaycanın İtaliya, San Marino və Maltadakı səfiri Rəşad Aslanov təmsil edib.



Tədbirdə çıxış edən FAO-nun baş direktoru Qu Donqyu müasir çağırışlara uyğun dayanıqlı kənd təsərrüfatı sisteminin yaradılması və ətraf mühiti qorumaqla məhsuldarlığın artırılması məsələlərinə toxunub. Qu Donqyu bildirib ki, qlobal çağırışların təsirləri fonunda Davamlı İnkişaf Məqsədlərinə nail olmaq üçün daha dayanıqlı aqroərzaq sistemlərinin qurulması və bu istiqamətlərdə qlobal əməkdaşlığın genişləndirilməsi olduqca vacibdir. FAO rəsmisi belə tədbirlərin aqrar sahənin inkişafı istiqamətində prioritetlərin müəyyənləşdirilməsi işinə mühüm töhfə verdiyini qeyd edib.

Kənd təsərrüfat nazirinin müavini İlhamə Qədimova aqrar sahədə ölkəmizdə aparılan islahatlardan söz açıb, Azərbaycanda aqrar inkişaf strategiyasının əsas istiqamətləri, həyata keçirilən innovativ layihələr barədə məlumat verib. Qlobal iqlim dəyişikliyinin aqrar sahəyə təsirindən danışan İlhamə Qədimova, müasir çağırışlar fonunda torpaq və su ehtiyatlarından səmərəli istifadənin zəruri olduğunu diqqətə çatdırıb.Nazir müavini Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) Azərbaycanda keçirilməsinin əhəmiyyətinə toxunub, iqlim dəyişikliyinin kənd təsərrüfatı sahəsinə təsirinin minimuma endirilməsi məqsədilə ölkəmizdə icra olunan tədbirlərdən söz açıb.

Sessiyada əhalinin sürətli artımı, dəyişən istehlak tələbləri, iqlim dəyişikliyi və təbii ehtiyatların tükənməsi fonunda dünyada ərzaq və qida təhlükəsizliyinin təmin olunması ətrafında fikir mübadiləsi aparılıb. Tədbir iştirakçıları ərzaq təhlükəsizliyinin təmin edilməsi üçün kənd təsərrüfatının rəqəmsal transformasiyası, bu sahədə texnologiya transferi, qabaqcıl təcrübələrin bölüşülməsi sahələrində əməkdaşlığın zəruri olduğunu diqqətə çatdırıblar.

Tədbir çərçivəsində Azərbaycan nümayəndə heyəti ilə Dünya Ərzaq Təhlükəsizliyi Komitəsinin (CFS) sədri Nosipho Jezile ilə görüş keçirilib. Görüşdə aqrar sahədə qabaqcıl təcrübələrin ölkəmizdə tətbiqi, əməkdaşlıq perspektivləri müzakirə olunub, qarşılıqlı maraq doğuran məsələlər barədə geniş fikir mübadiləsi aparılıb.

# Qızıl niyə bahalaşıb?

Dünya bazarlarında qızılın qiyməti son bir həftə ərzində rekord həddə bahalaşaraq sənaye tarixində ilk dəfə bir troya unsiyası 2400 dollara yaxınlaşıb. Nyu-Yorkun "COMEX" əmtəə birjasında qızılın qiyməti ilə yanaşı, alıcılıq qabiliyyəti və tələblər də yüksəlib. Qızılın spot qiyməti heç vaxt bu satış əmsalına yüksəlməyib, 2022-ci və 2023-cü ilin əvvəllərində artım müşahidə olunsa da, bu qiymətli metalın unsiyası 1800 dollardan yuxarı olmayıb. Ümumdünya Qızıl Şurasının məlumatına görə, 2023-cü rəkkəb geoiqtisadi proseslər və müxtəlif siyasi hadisələrin qızılın qiymətinin artıb-azalmasında təsiredici rolu müxtəlif vaxtlarda özünü göstərir. Məsələn aprel ayında ABŞ-ın və Avropanın Mərkəzi banklarının investisiya bazarında tələbin artması, Rusiya-Ukrayna müharibəsi ilə bağlı yardımların ayrılmasından qaynaqlanan gərginliklər və digər geosiyasi proseslər aprelin sonlarında bu sarı metalın qiymətinin unsiyasının 2450 dollara yaxınlaşmasına səbəb olmuşdu. May ayında isə mülayim iqtisadi və siyasi pro-



ildə mərkəzi bankların xalis qızıl alışı əvvəlki illə müqayisədə 50%-dən çox artaraq 700 tona çatıb. Dünyada investisiya aləti kimi qızıla tələbat 4% artaraq 3,5 min tonu ötüb.

Bu qiymətli metalın qiymətinin artmasına bir çox amillər təsir göstərir ki, onlardan birincisi dünyanın səhm və qiymətli kağızlar bazarının şəksiz lideri olan ABŞ-ın monetar alətlərdə etdiyi dəyişikliklərdir. Belə ki, ABŞ Federal Ehtiyat Sisteminin faiz dərəcələrini aşağı salması bu metalın birja indekslərində artımları alovlandırır. Nyu-York əmtəə birjasında (NYMEX) qızılın 1 troya unsiyasının dəyəri 2378 dollara çatıb ki, bu da apreldəki orta qiymət olan 2382 dollardan 6 dollar daha baha satış deməkdir.

Baş verənlər qızıla həm investisiya kimi qlobal marağın artmasını, həm də bu sənaye sahəsinin investorlar üçün daha cəlbedici olmasını stimullaşdırır. Qızıla investisiya aləti kimi beynəlxalq investorların bu marağının artması pul və səhmlərlə nisbətdə bu qiymətli metalın maliyyə-investisiya bazarlarında üstünlüyünü də önə çıxarmağa başlayıb. Belə ki, qlobal səhmdarlar pul və blokçeynlər, qiymətli kağız və səhmlərdən daha çox qızıla investisiya qoymağı indi daha məqsədəuyğun sayır, eləcə də dünyanın iri şirkətləri, suveren fondları öz yığımlarını dollar və avro ilə nisbətdə qızıl portfelinə yerləşdirməyi faydalı hesab edirlər. İnvestorların əvvəlki illə müqayisədə bu qiymətli metala tələbatı ən azı 10% artıb.

Qızılın qiymət dalğalanmalarında geosiyasi amillərin də təsiri az rol oynamır. Qlobal miqyasda baş verən müseslər fonunda qızıl yenidən 2 faiz ucuzlaşıb.

Amma bütün bunlara rəğmən qızıl investisiya aləti və yığım vasitəsi kimi digər maliyyə alətlərindən daha sərfəliliyini qoruyub saxlayır. Xüsusilə də son illərdə davamlı olaraq pul və digər qiymətli kağızların qızıla investisiya edilməsi də bunu təsdiqləyir.

ABŞ-ın investisiya bazarlarında və birjalarında ənənəvi bir sindrom halə də qalmaqdadır, FED faiz dərəcələrini artırdıqda qızılın qiyməti ucuzlaşır, faiz stavkasını aşağı salanda isə qızıl bahalaşır. Beynəlxalq reytinq agentliyi "Fitch Ratings"in proqnozlarına görə, ABŞ hökumətinin 2024-cü ilin ikinci yarısında uçot dərəcələrini bir qədər də endirəcəyi istisna deyil, xüsusilə də payız aylarında ölkədə Prezident seçkiləri ilə bağlı siyasi mübarizənin artması, daxili siyasətdə gərginliklərin davam etməsi hökuməti aşağı faiz dəhlizinə fokuslanmağa məcbur edəcək. Bu isə qızılın yüksək dəyərinin sabitliyini saxlayacağını söyləməyə əsas verir.

Mövcud ssenarilər Azərbaycan üçün əlverişlidir. Bu səbəbdən Azərbaycanın Dövlət Neft Fondundakı, həm Mərkəzi Bankdakı, həm də "Azərgold"un balansında olan qızıl ehtiyatlarının həcmi artırılır. Qızıl rezervlərinin saxlandığı əsas mənbələrdən biri olan Dövlət Neft Fondunun (DNF) investisiya portfelinin 15%-ə qədəri 101,8 ton (3.272 unsiya) qızıl investisiyalarıdır. Bu baxımdan qızılın bahalaşması Neft Fondunun qızıl ehtiyatlarının dividend gəlirlərinin də yüksəlməsini təmin edir.

**ELBRUS**

# Türkiyə də Avrasiyanın yanacaq ünvanına çevrilir



Avropa İttifaqı (Aİ) məkanında enerji daşıyıcıları ilə təminat sahəsində yaşanan kritik reallıqlar fonunda Türkiyə üçün yeni fürsətlər açılıb. Söhbət qardaş ölkənin regional qaz habına çevrilmə perspektivlərindən gedir. "Mayeləşdirilmiş təbii qaz (LNG) infrastrukturu genişləndikcə və mənbələri daha da şaxələndikcə Türkiyə yaxın illərdə avtomatik olaraq qaz ticarət mərkəzinə çevriləcək". Bunu ölkənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktar TRT telekanalına açıqlamasında deyib. Onun sözlərinə görə, qazın şaxələndirilməsi strategiyasının tərkib hissələrindən biri də mayeləşdirilmiş təbii qazın alınmasıdır.

Türkiyə il ərzində təxminən 51 milyard kubmetr təbii qaz istehlakı ilə Avropanın dördüncü ən böyük istehlakçısıdır. Türkiyə uzun illər ərzində təbii qazı idxal edirdi. Sakarya təbii qaz yatağında kəşf edilən təbii qaz Türkiyədə mavi yanacaq təchizatı ilə bağlı vəziyyəti köklü şəkildə dəyişib. Xatırladaq ki, 2020-ci ildə Türkiyə hakimiyyəti Qara dənizdə 540 milyard kubmetr həcmində proqnozlaşdırılan qaz ehtiyatının kəşf olunduğunu elan edib. Onların ən böyüyü olan "Sakarya" yatağında ehtiyatların həcminin 400 milyard kubmetri keçdiyi bildirilir. Qardaş ölkə Qara dənizdəki bütün yataqların kəşfiyyatını və gələcək işlənməsini məqsəd kimi qarşıya qoyub. Bütövlükdə, Türkiyə Qara dənizdə 540 milyard kubmetr qazın hasilatı və nəqlinə təxminən 10 mlrd. dollar sərmayə qoymağı planlaşdırır. Bildirilir ki, Qara dəniz 45 il ərzində dünyanın qaz ehtiyacını ödəməyə qadirdir. Qardaş ölkə, həmçinin Aralıq dənizində kəşfiyyat işlərini bərpa etmək niyyətini də açıqlayıb.

Türkiyənin artıq mavi yanacaq istehsalçısına çevrilməsi böyük tarixi hadisə kimi dəyərləndirilir. Cari il aprel ayının sonunadək hasil edilən təbii qazın miqdarı təxminən 4,6 milyon kubmetrə çatıb. Ancaq hədəf daha böyükdür. Türkiyə 2025-ci ilin əvvəlinə qədər gündəlik hasilatı 10 milyon kubmetrə çatdırmağı hədəfləyir. Yeni kəşflərlə qısa müddətdə hasilatın 20 milyon kubmetrdən çox olması gözlənilir. Bu o deməkdir ki, təxminən 9-10 milyon evin təbii qazı milli ehtiyatlar hesabına təmin ediləcək. Bu səbəbdən təbii qazın saxlanması ilə bağlı hədəflər bir-bir həyata keçirilir. 2028-ci ilə qədər Türkiyə istifadə etdiyi qazın 20 faizini saxlamağı hədəfləyir.

Enerji və Təbii Sərvətlər Nazirliyinin planlarına görə, Türkiyənin anbar tutumundan istifadə nisbəti 50 faizə çata bilər. Bu səbəbdən də Tuz Gölü Təbii Qaz Anbar Hövzəsi başda olmaqla bir çox ərazilərdə təbii qaz anbarlarının yaradılması və ya genişləndirilməsi planlaşdırılır.

**Qardaş ölkə üçün yaranan yeni fürsətlər...**

Getdikcə artan geosiyasi və geoiqtisadi kataklizmlər fonunda qardaş ölkənin regional mavi yanacaq təchizatçısı habına çevrilməyi hədəfləməsi təsadüfi deyil. Qardaş ölkə üçün yeni fürsətlərin yaranmasını şərtləndirən bir sıra amillər sadalamaq mümkündür.

1. Rusiyanın öz qazını Türkiyə vasitəsilə istehlak bazarlarına çıxartmaq istəyi və qardaş ölkənin buna qarşılıq verməyə siyasi qətiyyət göstərməsi,

2. İstehlakçıların Türkiyənin vasitəçiliyinə müsbət yanaşması,

3. Əlverişli coğrafi mövqe, istehsalçı və istehlakçı ölkələrlə qonşuluqda yerləşməsi,

4. Türkiyənin özünün daxili qaz istehsalını genişləndirmək perspektivi,

6. Qardaş ölkənin müsbət beynəlxalq imici, Prezident Rəcəb Tayyib Ərdoğanın nüfuzu və liderliyi

Türkiyə regional qaz ixracatçısına çevrilmək üçün enerji mərkəzi yaratmaq istiqamətində məqsədyönlü fəaliyyətlər həyata keçirir. Artıq Trakyada mərkəzin qurulacağı yer müəyyənləşdirilib. Mərkəzin bu il qurulması nəzərdə tutulur. Rusiya ilə birgə həyata keçiriləcək layihə çərçivəsində Moskva ilə Ankara arasında enerji dialoqu intensivləşib. Məlumdur ki, böyük həcmlərdə Rusiya qazı Avropa istehlakçılarına məhz Ukraynadan tranzit olunur. Bu müqavilənin uzadılmayacağı və ona xitam veriləcəyi gözlənilir. Belə olan halda Rusiyadan Aİ məkanına mavi yanacaq bütünlüklə Türkiyə üzərindən ötürüləcək.

Yaradılan müasir infrastruktur qardaş ölkənin mövqeyini gücləndirən ən mühüm amillərdən biridir. Hazırda Türkiyənin, ümumilikdə, 7 beynəlxalq təbii qaz boru kəməri, 2-si üzən anbar və qazlaşdırma qurğusu olmaqla 4 LNG qurğusu və 2 yeraltı təbii qaz anbarı var.

Beynəlxalq layihələrdən biri olan "Türk axını" Rusiyanın Anapa şəhərindən Kırklarelinin Kıyıköy bölgəsinədək uzanan hər biri 930 kilometr uzunluğunda iki boru kəmərindən ibarətdir. Qara dənizin altından keçən xətlərdən biri Türkiyənin milli şəbəkəsinə birləşir. Digəri isə təbii qazın Türkiyə üzərindən Avropaya nəqlinə imkan yaradır. Hər bir xətt ildə 15,75 milyard kubmetr təbii qaz nəql etmək gücünə malikdir. Rusiya təbii qaz kəmərinin gücünü artırmaq istəyir. Məsələ ilə bağlı müzakirələr aparılır.

Rusiyadan Türkiyəyə Qara dənizdən keçən digər təbii qaz kəməri isə "Mavi axın"dır. Bu xətt illik 16 milyard kubmetr təbii qaz ötürmə qabiliyyətinə malikdir.

Azərbaycanın təbii qazını nəql edən Trans-Anadolu təbii qaz boru kəməri (TANAP) hazırda 16 milyard kubmetr təbii qaz nəql etmək gücündədir. Bu təbii qazın 6 milyard kubmetri Türkiyəyə, 10 milyard kubmetri isə Avropaya nəql edilir. Xəttin gücünün qısa müddətdə iki dəfə artırılması nəzərdə tutulur.

Türkiyə, həmçinin Mərkəzi Asiyadakı Türk dövlətləri ilə enerji dialoqunu genişləndirmək istəyir. Bu istiqamətdə ilk addım Türkmənistanla atılıb. Belə ki, martın əvvəlində iki ölkə arasında təbii qaz üzrə əməkdaşlıq müqaviləsi imzalanıb.

**Şaxələndirmənin yeni istiqaməti - LNG**

Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın sözlərinə görə, qazın şaxələndirilməsi strategiyasının tərkib hissələrindən biri də mayeləşdirilmiş təbii qazın alınmasıdır: "Biz son səkkiz ildə o qədər sərmayə qoymuşuq ki, mayeləşdirmə müəssisələrimizin gücü 160 milyon kubmetrə çatıb Bu, ehtiyac duyduğumuz qazın həcminin yarısını LNG şəklində asanlıqla idxal edə bilməyimizə imkan verir. Eyni zamanda, bizim bu mayeləşdirilmiş qazı tankerlərlə satmaq üçün hazır qanunvericilik bazamız var", - deyə nazir bildirib. O xatırladıb ki, ABŞ-da LNG tədarükü ilə bağlı razılaşmalar əldə olunub.

Digər layihələrdən danışan nazir bildirib ki, Azərbaycanla tədarük həcminin artırılması ilə bağlı razılaşmalar əldə olunub, eyni zamanda, türkmən qazının Türkiyəyə tədarükü layihəsi var. Onun sözlərinə görə, bütün bunlar beynəlxalq qaz ticarət mərkəzi layihəsinin tərkib hissəsidir. Nazir "Türk axını" boru kəmərini "təbii qaz mənbələrinin şaxələndirilməsi üçün Türkiyənin ən mühüm layihələrindən biri" adlandırıb. "Əvvəllər qazın bir hissəsini Rusiyadan alırdıq - Ukrayna, Moldova, Rumıniya və Bolqarıstandan tranzitlə. İndi belə tranzitə ehtiyac yoxdur və biz bu qazı birbaşa Qara dənizdən alırıq. Bizim kommersiya, texniki və hüquqi infrastrukturumuz və çox yaxşı işləyən enerji birjamız var. Biz Bolqarıstan, Macarıstan və Rumıniyaya qaz satırıq. Bütün bunlar ölkəmizi qaz ticarəti mərkəzinə çevirir. Biz yeraltı LNG anbarlarımızın həcmini artırmaq istəyirik. 2028-ci ilə qədər anbarların tutumu 5,8 milyarddan 12 milyard kubmetrə çatacaq. Biz qazın 25 faizini mayeləşdirilmiş formada saxlaya biləcəyik".

Alparslan Bayraktarın sözlərinə görə, Türkiyə qaz mərkəzi layihəsini strateji hesab etməkdə israrlıdır: "Bunu inkişaf etdirmək üçün bizə daha çox mənbə lazımdır, biz Bolqarıstan və Yunanıstana ixrac imkanlarını genişləndirməliyik".

A.Bayraktar, həmçinin qeyd edib ki, qaz və digər enerji ehtiyatlarının yerli istehsalı birbaşa qaz ticarət mərkəzinin və enerji birjasının işi üçün o qədər də vacib deyil. Bu xüsusda, fikirlərini diqqətə çatdıran nazir "Əlbəttə, bizim öz enerji resurslarımızdan, qazımızdan, neftimizdən, bərpa olunan enerji mənbələrindən istifadə etmək vacibdir. Lakin digər tərəfdən, enerji resurslarının mümkün qədər müxtəlif ölkələrlə və müxtəlif formalarda şaxələndirmək lazımdır", - deyə bildirib.

***Mübariz FEYİZLİ***

# Taksilərdə bahalaşmanın səbəbi nədir?

Son günlər paytaxtda taksi qiymətlərində bahalaşma müşahidə edilir. Taksi sürücüləri də qiymətlərin artdığını təsdiqləyirlər. Hətta bəzi sürücülər qiymətlərin 5 manatdan başlayacağını iddia edirlər. Taksi üçün nəzərdə tutulmuş mobil proqramlara nəzər yetirsək, əvvəllər 1.50 azn-dən başlayan qiymətlər hazırda 2.50-dən başlayır. Qiymətlər günün saatlarına uyğun olaraq dəyişir.

Qiymətlərin artması bir neçə səbəblə izah olunur. Bahalaşma taksi xidməti göstərən avtomobillərin sayının kəskin azalması, Nazirlər Kabinetinin taksi fəaliyyətinin tənzimlənməsinə dair dair qərarından sonra yaranana ajitaj və digər açıllər ilə izah olunur. Ən çox da NK-nın qərarının bu sahədə təsiredici rol oynadığı bildirilir.

Nazirlər Kabinetinin yeni qərarı nəyi nəzərdə tutur?

Hökumətin taksi fəaliyyəti ilə bağlı qərarında əsasən;

1. Buraxılış ili 15-i keçən avtomobillər taksi kimi fəaliyyət göstərə bilməyəcək.

2. Avtomobilin istehsal tarixi 8 ildən az olmalıdır ki, sahibi taksi fəaliyyətinə icazə ala bilsin. Çünki qanunvericiliyə görə, taksilər üçün buraxılış kartı 7 il müddətinə verilir.

3. Taksilər üçün yalnız iki rəng - qırmızı və ağ rənglər tətbiq olunacaq. Ancaq bu, yeni avtomobillərə aiddir, hazırkı taksi avtomobilləri olduğu kimi qala bilər.

4. Taksilərin salonunda videokameralar olmalıdır.

5. Taksilərdə nağdsız ödəniş üçün POS-terminal, taksometr və ya dijital ödəniş vasitəsi - mobil telefon proqramı olmalıdır.

6. Taksi sürücüləri buraxılış vəsiqəsi, buraxılış kartı və şəhadətnamə almalıdır.

Qeyd edək ki, Nazirlər Kabinetinin bu qərarından sonra bir çox sahibkar köhnə avtomobillərini kütləvi şəkildə satışa çıxarıb. Bu sadalananlar taksi xidməti göstərən avtomobillərin sayının kəskin azalmasına səbəb olmaqdadır. Nəticədə bazarda tələbtəklif amili bu bahalaşmaya zəmin yaradıb.

Bəzi mütəxəssislər yeni qərarın taksi parkında avtomobillərin sayının daha da azalacağını, qiymətlərin yenə artacağını düşünürlər.



**Taksi sürücülərindən tələb olunan şəhadətnamə nədir?**

"Avtomobil nəqliyyatı haqqında" qanuna əsasən, taksi minik avtomobili sürücüləri etik davranış qaydaları və avtomobil nəqliyyatı ilə sərnişin daşınmanı tənzimləyən hüquqi aktlara dair xüsusi təlim keçməlidir. Bu təlimlərdə sürücülərə etik davranış qaydaları, sürücü-sərnişin münasibətləri, ilk tibbi yardım, normativ hüquqi aktlar, şəhərin tanınması, maşında nələrin olması, necə idarə olunmasına və digər bu kimi məlumatlar öyrədilir.

Təlim 4 gün keçirilir, 5-ci gün sürücülər imtahan verir. Bu təlimi keçməyən sürücülər digər bütün göstəricilərə uyğun gəlsələr də, taksi fəaliyyəti üçün buraxılış kartı ala bilməzlər. Təlim ödənişlidir və qiyməti 76 azn müəyyənləşdirilib.

**Buraxılış vəsiqəsi, buraxılış kartı...**

Nazirlər Kabinetinin qərarına əsasən, buraxılış vəsiqəsi taksi fəaliyyəti göstərmək istəyən hüquqi şəxslərə və ya fərdi sahibkarlara təqdim olunan icazə növüdür. Buraxılış kartı isə taksi kimi istifadə olunan nəqliyyat vasitəsi üçün nəzərdə tutulub. "Dövlət rüsumu haqqında" qanuna əsasən, buraxılış vəsiqəsi üçün dövlət rüsumu 125, buraxılış kartı üçün isə 25 manat müəyyən edilib. Bütün bunlarla birgə taksi fəaliyyəti ilə məşğul olan şəxslər minimum xərci 226 manat olacaq.

**Taksi sürücüləri yeni avtomobil almalıdır...**

Bunlar sənədləşmə xərcləridir, daha böyük xərc təzə maşın almaq üçün tələb olunur. "Avtosfer.az" saytının baş redaktoru, nəqliyyat eksperti Elməddin Muradlının fikrincə, taksi xidməti ilə məşğul olan operatorlar artıq 1999-2000-ci illərin istehsalı olan avtomobilləri sistemdə bloklamağa başlayıb. Bu proses 2010-cu il istehsalı olan avtomobillərə də mərhələli şəkildə tətbiq ediləcək. Ona görə də taksi fəaliyyəti ilə məşğul olan şəxslərdən yeni avtomobildən istifadə tələbi qoyulduğundan onlar məcburi də olsa yeni avtomobil almalı olacaqlar. Bu avtomobillər isə bahadır. Bütün bu xərclərin qarşılığında taksi fəaliyyəti göstərən şəxs ucuz qiymətə sərnişin daşımaq istəməyəcək. Taksi operatorları isə sərnişinlərə ekonom, biznes-klas, VİP xidmət təklif edir. Təzə avtomobillə heç kim ekonom xidmətə qoşulmaq istəmir. Belə olduqda qiymətlər bahalaşır.

**İctimai nəqliyyat qaydasında deyil...**

Ekspert qeyd edib ki, paytaxtda ictimai nəqliyyat qaydasında deyil: "Yaxın zamanlarda bu problemin həllini gözləmək olmaz. Bu proseslər paralel şəkildə aparılsaydı, daha yaxşı nəticə əldə etmək olardı. Qəbul edilən qərarlar və qanunlar fonunda taksi fəaliyyəti ilə məşğul olanlar azalır. Bu qərarlar dünyanın bir çox ölkələrində tətbiq edilir. Lakin orada ictimai nəqliyyat yüksək səviyyədə fəaliyyət göstərir və çeşidləri çoxdur.

***Yeganə BAYRAMOVA***

# Qarabağda fəaliyyət göstərmək üçün 503 xarici şirkət müraciət edib

İşğaldan azad olunan Qarabağda fəaliyyət göstərmək üçün müxtəlif iş adamları və şirkətlərdən 1900 müraciət daxil olub. Bu barədə KOBİA-nın İdarə Heyətinin sədri Orxan Məmmədov bildirib. O qeyd edib ki, müraciət edənlərdən 503-ü xarici şirkətlərdir. "İşğaldan azad edilən ərazilərdə əsasən tikinti, kənd təsərrüfatı, turizm, dağ-mədən sahələri prioritet təşkil edirlər. KOBİA Tacikistandan gələn şirkətlər üçün treninq kursları keçə, onları yerli bazarla və qanunvericiliklə yaxından tanış edə bilər".

# DƏYƏRLİ TƏDQİQAT ƏSƏRİ

Azərbaycan xalqının tarixi yaddaşında, milli şüurunda əzəli və əbədi yurd yerimiz olan Qərbi Azərbaycan torpaqlarının tarixi-mədəni xəritəsi müqəddəs bir məhəbbət məbədinə çevrilmişdir. Xalqımız əsrlər boyu öz hüquqlarını qorumaq, öz tarixi torpaqlarında yaşamaq üçün böyük fədakarlıq və qəhrəmanlıq göstərmişdir. Çar Rusiyasının Azərbaycanı işğalından sonra xalqımız qanlı fəlakətlərə və qırğınlara məruz qaldı. Bu işğal yalnız torpaqlarımızın zəbt olunması ilə nəticələnmədi, yüz minlərlə azərbaycanlı etnik təmizləmə siyasəti nəticəsində soyqırımına, repressiya və deportasiyalara məruz qaldı. Erməni vandalları Qərbi Azərbaycandan azəri türklərinin izlərini silməyə çalışsalar da, buna nail ola bilmədilər. Çünki o torpaqların hər qarışında ulu babalarımızın yaratdıqları tarixi abidələrimiz, milli-mənəvi sərvətlərimiz vardır. Dövlətimizin başçısı cənab İlham Əliyevin qeyd etdiyi kimi, "ermənilər Qarabağdakı kimi, Qərbi Azərbaycanda da bizim bütün tarixi, dini abidələrimizi yerlə-yeksan ediblər, dağıdıblar, azərbaycanlıların tarixi irsini silmək istəyiblər, ancaq buna nail ola bilməyiblər. Çünki tarix var, sənədlər var, xəritələr var". Azərbaycan mədəniyyətinə və müsəlmanlara aid dini abidələrin, azərbaycanlıların məzar daşlarının yerlə-yeksan edilməsi, indiki Ermənistan ərazisində Azərbaycan türk toponimlərinin tamamilə dəyişdirilməsi faktları erməni vandalizminin bariz sübutudur. Bu baxımdan tarixi sənədlər, qədim yazılı mənbələr, milli-mənəvi mədəniyyət abidələri və s. bir daha onu göstərir ki, Qərbi Azərbaycan tarixi Azərbaycan diyarıdır, şəhərlərin, kəndlərin adları Azərbaycan mənşəlidir və biz yaxşı bilirik ki, indiki Ermənistan ərazisində tarix boyu Azərbaycan xalqı yaşayıb. Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti və qətiyyətli liderliyi sayəsində 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ilin 23 saatlıq antiterror əməliyyatı nəticəsində Azərbaycanın ərazi bütövlüyünü tam bərpa etməsindən sonra Qərbi Azərbaycandan olan soydaşlarımızın da vaxtilə didərgin salındıqları ata-baba yurdlarına qayıdacağına inamı artıb. Azərbaycanın müzəffər liderinin dünya miqyasında artan nüfuzu, Azərbaycan xalqının öz quruculuq və müdafiə gücünə inamı ona bu gün Qərbi Azərbaycanın faciəsini, öz tarixi torpaqlarına qayıtmaq, eləcə də qonşu dövlətlərin xalqları ilə əməkdaşlıq və sülh şəraitində yanaşı yaşamaq kimi sülhsevər niyyətini bütün dünya ictimaiyyətinə açıq şəkildə nümayiş etdirməyə imkan verir. Qərbi Azərbaycanın milli-mənəvi sərvətləri, ədəbiyyat və incəsənəti, o cümlədən mətbuat tarixi kifayət qədər öyrənilməmişdir. Xüsusilə, Qərbi Azərbaycanın mətbuat tarixi, burada müxtəlif dövrlərdə fəaliyyət göstərən ayrı-ayrı qəzet və jurnallar barədə çağdaş oxucunun demək olar ki, məlumatı yoxdur. Bu baxımdan tanınmış tədqiqatçı dosent Cəlal Allahverdiyevin "Qərbi Azərbaycan mətbuatı tarixi" kitabının məhz belə bir dönəmdə ərsəyə gəlməsi hər baxımdan əhəmiyyətli bir hadisə kimi çox diqqətəlayiqdir. Qeyd edək ki, C.Allahverdiyev Qərbi Azərbaycanın tanınmış elm və mədəniyyət xadimləri, elmi-pedaqoji fikir tarixi, görkəmli ziyalıları və sair barədə müxtəlif səpkili əsərlərin müəllifidir. Onun uzun illər apardığı gərgin axtarışların nəticəsi kimi meydana çıxan "Qərbi Azərbaycan mətbuatı tarixi" əsəri yeni faktlar, açılmamış səhifələr, tədqiqatdan kənarda qalan hadisələrlə olduqca zəngindir. Kitabda 1914-1988-ci illər dövrünü əhatə edən, ictimai-ədəbi fikir tariximizdə əsaslı mövqeyə sahib olan milli mətbuatın yaranma tarixi və onun keçdiyi mürəkkəb və keşməkeşli, amma eyni zamanda şərəfli inkişaf yolu tədqiqata cəlb edilir. Qərbi Azərbaycanda nəşr olunan milli mətbuat orqanlarının meydana gəlməsində və onların fəaliyyətində böyük fədakarlıq göstərmiş görkəmli ziyalılar barədə geniş söhbət açılır.




Kitabın "Qərbi Azərbaycanda dövri mətbuat" adlı hissəsində xalqımızın milli-mənəvi mədəniyyət tarixinə şanlı səhifələr yazmış "Əkinçi", "Ziya", "Ziyayi-Qafqaziyyə", "Şərqi-rus", "İrşad", "Təkamül", "Füyuzat", "Tərəqqi", "İqbal", "Hümmət", "Tuti", "Molla Nəsrəddin" və s. mətbuat orqanlarının İrəvan ədəbi mühitinin, maarif və mədəniyyətinin tərəqqisində oynadığı mütərəqqi rolundan bəhs edilir. Müəllif bu mətbuat orqanlarında geniş yaradıcılıq imkanları sərgiləyən Abbas Razi Məmmədzadə, Cabbar Əsgərzadə, Mirzə Cabbar Məmmədzadə, Əkbər Əkbərov, Məhəmməd Axundova, Ələkbər bəy Sultanov, Məhəmməd Xanlarov, Yaqub Əlibəyov, Mirzə Hüseyn Həsənzadə İrəvani və sair ziyalılar haqqında məlumat verməklə onların İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai mühitinin canlanmasında və milli tərəqqi üçün daha geniş imkanların ortaya çıxmasında əhəmiyyətli təsirini qeyd etmişdir.

Kitabın "Qərbi Azərbaycanda ilk milli mətbuat orqanı: Lək-lək" adlı digər bir başlığında İrəvanın maarifpərvər ziyalılarının uzun və ardıcıl mübarizələrinin nəticəsi olaraq 1914-cü il 21 yanvar tarixində "Lək-lək" satirik jurnalının nəşri və onun Qərbi Azərbaycan mətbuatının inkişafındakı xidmətlərindən bəhs edilir. "Lək-lək" in nəşri ədəbi-mədəni mühitin formalaşmasında bir dönüş nöqtəsi oldu. Cabbar Əsgərzadə başda olmaqla dövrün ən görkəmli ədəbi qüvvələri-Əli Məhzun Rəhimov, Məmmədəli Nasir, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar və başqaları jurnalın ətrafında toplanmışdılar. "Molla Nəsrəddin" platformasına, onun əqidəsinə sadiq olan "Lək-lək" elə ilk nömrəsi ilə cəhalət və xurafata qarşı zəhmli bir yumruğa çevrilərək yeni tipli məktəblərin açılması, maarifçiliyin inkişafında qabaqcıl təcrübənin təbliği, təlim-tərbiyə üsullarının yaxşılaşdırılmasına dair məqalələr dərc edirdi. Qısa zaman ərzində jurnalın mübarizə sədası Cənubi Qafqazı aşaraq yayılma arealını genişləndirir, Orta Asiya və Türkiyəyə də gedib çatır. Müəllif Cəlal Allahverdiyev "Lək-lək" jurnalını mütərəqqi ideyaların carçısı hesab edərək, onun milli şüurun inkişafında və demokratik ideyaların təbliğindəki xidmətlərini müxtəlif prizmalardan işıqlandırmışdır.

Kitabın növbəti bölmələrində İrəvanda Azərbaycan ədəbi-mədəni, ictimai mühitində, həm də mətbuatı tarixində əlamətdar hadisələr kimi qiymətləndirilən "Bürhani-həqiqət", "Rəncbər", "Zəngi", "Qızıl Şəfəq", "Kommunist", "Sovet "Ermənistanı", "Xalq maarifi" qəzet və jurnallarının nəşri tarixlərindən, milli-mədəni tərəqqi yolunda bu mətbuat orqanlarının gərgin və əzmli mübarizəsindən, mətbuat tariximizdə özünəməxsus rolundan bəhs edilir. Qərbi Azərbaycanda ana dilində yeganə mətbuat orqanı olan "Zəngi" qəzeti adında və fəaliyyətində böyük milli-mənəvi mənaları ifadə etdiyi üçün bunu heç cürə həzm edə bilməyən Ermənistanın şovinist dairələri müxtəlif bəhanələr gətirərək onun adını dəyişdirib "Qızıl Şəfəq" qoydular". Adı dəyişdirilsə də qəzet öz sələfinin mübariz ənənlərinə sadiq qalaraq Qərbi Azərbaycanda baş verən ictimai-ədəbi hadisələrin mərkəzində olmuş, respublikanın gündəlik həyatında baş verən məsələləri öz səhifələrində işıqlandırmışdır. Uğurlu fəaliyyəti nəticəsində artıq gündəlik nəşr olunan qəzet nəinki Cənubi Qafqazda, keçmiş SSRİ-də nəşr edilən mətbuat orqanları arasında böyük nüfuz qazana bilmişdi. Qəzetin uğurlu faəliyyəti erməni qaragüruhçu dairələrində qıcıq yaratdığından onlar qəzetin ünvanının tez-tez dəyişməklə onun artan nüfuzuna və ardıcıl, həvəsli, əzmli fəaliyyətinə əngəl törətməyə çalışırdılar. Amma müəllifin apardığı araşdırmadan bəlli olur ki, "Qızıl şəfəq" məcmuəsi çox enişli-yoxuşlu yollardan keçsə də, milli mətbuat tariximizin hərtərəfli istiqamətlərdə öyrənilməsi sahəsində böyük töhfə hesab olunur.

Qərbi Azərbaycanın bir sıra rayonlarında yerli mətbuatın yaradılmasına və inkişaf tarixinə həsr olunmuş "Qərbi Azərbaycanda rayon qəzetlərinin meydana gəlməsi" hissəsində 1931-ci ildə Vedi rayonunda həftəlik orqan olan "Bolşevik surəti", eyni ildə Basarkeçər rayonunun icraiyyə komitəsinin orqanı olan "Qırmızı Basarkeçər", 1933-cü ildə Amasiya rayonunda Azərbaycan dilində mətbuat orqanı kimi "Maldarlıq cəbhəsində" qəzetlərin milli-mənəvi dəyərərə söykənən əhəmiyyətli fəaliyyəti ilə bağlı qiymətli araşdırmalar var. Məlum olur ki, qəzetlər səhifələrində mövcud dövrün ideoloji istiqamətlərini, siyasi maarif sisteminin fəaliyyətini müntəzəm olaraq işıqlandırırdılar. Rayon qəzetlərinin səhifələrində sadə adamların əməyə, onlar qurmaq, yaratmaq eşqinin tərənnümünə həsr edilmiş yazılar üstünlük təşkil edirdi. "Maldarlıq cəbhəsində" qəzetinin adı son olaraq "Əmək" qəzeti adına dəyişdirilərək 56 il fəaliyyət göstərmişdir. Qəzetin redaksiyası yanında yaradıcı insanlar və qələm sahiblərindən ibarət "Ədəbi dərnək" yaradılır. İmzaları Ağbabanın hüdudlarını aşan Əli Bayramov, Avtandil Ağbaba, Abbasqulu Əmirov, Məcnun Şabanov, Sultan Orucoğlu, Şahin Əliyev bu sırada idilər.

"Qərbi Azərbaycanın tanınmış mətbuat xadimləri" hissəsində müəllifin Qərbi Azərbaycanın qabaqcıl ziyalı, görkəmli ictimai xadimləri, elm və təhsil sahəsində əhəmiyyətli xidmətləri olan şəxsiyyətlərin ədəbi-mədəni fəaliyyəti ilə bağlı araşdırdığı məlumatlar diqqətəlayiqdir.

Vətən ruhumuzun əsir olduğu yerdir. Qərbi Azərbaycan da xalqımız üçün belə bir əzəli, ruhunun hər zaman üzərində dolaşdığı yurd yeri, Vətəndir. Dosent Cəlal Allahverdiyevin bu qiymətli tədqiqat əsərinin hər hissəsində Qərbi Azərbaycan ədəbi mühitinə, maddi-mənəvi dəyərlərinə özünəməxsus həssalıq, sevgi, diqqət danılmazdır. Kitab mətbuat tariximizin indiyədək işıqlandırılmayan və üzə çıxarılmağa ehtiyac duyan gerçəkliklərinə işıq tutaraq, onun ağrılı-acılı səhifələrindəki boşluğun doldurulması istiqamətində atılan ilk və layiqli addım kimi dəyərləndirilir və düşünürəm ki, Azərbaycan mətbuat tarixi ilə maraqlananlar üçün faydalı bir mənbədir.

***Avtandil Ağbaba,***
***Filologiya üzrə***
***elmlər doktoru, professor***

# Möcüzə rəssam- Sarah Biffen

Əlillik özünə, həyatına əngəllər qoymaqdır, yoxsa sadəcə, fiziki məhdudiyyət?

Fiziki məhdudiyyət arzularından, xəyallarından, həyatdan vaz keçmək üçün səbəbdirmi?

Dünya əhalisinin 15 faizi müəyyən fiziki əlilliyə məxsus olsa da, onlar arasında bunu özünün şansına çevirən, həyatdan üz döndərmək yerinə, həyata sıx tellərlə bağlanan, özünü və ona verilən başqa imkanları ən gözəl şəkildə dəyərləndirən insanlar da az deyil. Tarixə nəzər saldıqda, istər mədəniyyət, incəsənət, istərsə də digər sahələrdə bu cür uğurlu şəxslərin şahidi oluruq.

Onlardan biri də XIX əsr ingilis rəssamı Sarah Biffendir (Biffen və ya Beffin). Sarah 25 oktyabr 1784-cü ildə beş uşaqlı ailənin ilk qız övladı kimi dünyaya gəlib. Təəssüf ki, onun əlilliyi doğuşdan idi. Belə ki, Sarahın qolları və ayaqları yox idi. Ancaq buna rəğmən, Sarah ta uşaqlığından həyatı sevmiş, ona bağlanmışdı. Buna görə də yazmağı, tikiş tikməyi və qayçıdan istifadəni bilirdi. Hətta fırçanı dişlərinin arasında tutaraq boyamağı da özünə öyrənmişdi. Daha sonra qoluna yapışdırılan bir fırça ilə rəsm çəkməyi də öyrənir və xəyallarını arzularını, gördüklərini, görmək istədiklərini ağ kağız üzərində canlandırır.



13 yaşında ikən bir səyyah şoumen Biffeni özü ilə aparmaq üçün ailəsindən icazə alır. O, getdiyi yerlərdə Sarahı insanlara təqdim edir, ondan "bədən üzvləri olmayan bir möcüzə", "səkkinci möcüzə" deyə bəhs edərək çəkdiyi miniatürləri sərgiləyir. Digər işlərdən əlavə, o, müntəzəm olaraq Londonun Smithfield bazarında böyük bir yarmarka olan Bartolomey Sərgisində iştirak edirdi. Bunun müqabilində ildə beş funt maaş alırdı. Şoumenin xidmətində on altı il işlədikdən sonra onunla müqaviləni ləğv edərək rəssam kimi müstəqil fəaliyyətə başlayır.

Sərgidə tanış olduğu və əsərlərindən təsirlənən Morton Qrafı ona Kral Akademiyasında Uilliyam Marşal Kraigdən rəsm dərsi almaq üçün köməklik göstərir.

Qısa zamanda karyerasının zirvəsinə çıxan Sarah Biffen öz studiyasında ingilis kral ailəsinin miniatürlərini çəkirdi. Həmçinin kraliça Viktoriya, şahzadə Albertin şəkillərini çəkmək üçün Brüsselə getmişdi. Kraliça Viktoriya onun üçün aylıq təqaüd ayırmışdı və o, hər ay bu təqaüdü alırdı.

Əllərinin yoxluğuna rəğmən, kətan üzərində möcüzələr yaratmağı bacaran miniatürçü rəssam öz şəklini də özü çəkmişdi.

1821-ci ildə Sarah Biffen Kral Sənət Toplusunda gümüş medala layiq görülür. Onun miniatürlərindən biri ingilis kral ailəsinin sənət kolleksiyası olan Kral Kolleksiyasında saxlanılır.

Şəxsi həyatı, istedadı, mübarizəsi ilə bir çox şairə, yazıçıya, sənət adamına ilham mənbəyi olan rəssam haqqında dünya ədəbiyyatının böyük yazıçılarından olan Çarlz Dikkens öz əsərlərində bəhs etmişdi. Hətta 1850-ci ildə Liverpulda dünyasını dəyişən Sarah Biffen müasir dövrdə belə ədəbiyyatçıların əsərlərinə ilham olmağa davam edir. İngilis şair Matt Simpson 2001-ci ildə onun haqqında bir şeir yazıb. 2020-ci ildə onun avtoportretlərindən biri Essaka Joshuanın Cambridge Universiteti Press tərəfindən nəşr olunan "İngilis Romantik Ədəbiyyatında Fiziki Əlillik" adlı kitabın üz qabığında yer alıb.

***Şahanə MÜŞFİQ***

# 2024-cü ilin sonunadək Şuşaya...

## "Böyük Qayıdış" sürətlə davam edir

İkinci Qarabağ müharibəsində qazanılan möhtəşəm qələbədən sonra dövlətimizin qarşısında dayanan ən mühüm hədəflərdən biri işğaldan azad edilmiş ərazilərimizin bərpasını və keçmiş məcburi köçkünləri doğma yurdlarına qayıdışının təmin edilməsidir. Döyüş meydanında düşməni diz çökdürən və kapitulyasiyaya məruz qoyan qalib Azərbaycan dövləti tikinti meydanında də yüksək ruhla işlər həyata keçirir. Ötən dövrdə reallaşdırılan layihələr onu deməyə əsas verir ki, respublikamız işğaldan azad olunmuş ərazilərin bərpası, soydaşlarımızın məskunlaşdırılması ilə bağlı qarşıya qoyulan vəzifələrin öhdəsindən layiqincə gəlir.

Prezident İlham Əliyevin müvafiq Sərəncamı ilə təsdiq edilən "Böyük Qayıdış"la bağlı 2022-2026-cı illəri əhatə edən Dövlət Proqramı işğaldan azad edilmiş torpaqlarımıza yenidən həyatın qaytarılmasında mühüm rola malikdir. Dövlətimiz tərəfindən "Böyük Qayıdış" planına uyğun olaraq məcburi köçkünlərin doğma yurd-yuvalarına qısa zamanda qayıtması üçün bütün imkanlar səfərbər edilib. Həmin ərazilərdə yeni yaşayış məntəqələrinin salınması, infrasturukturun bərpası, yolların çəkilişi, məktəb, xəstəxana tikintisi sürətlə davam edir. Bir zamanlar dədə-baba yurdlarını tərk etməyə məcbur qalan soydaşlarımız indi doğma torpaqlarına ləyaqət və böyük fəxrlər qayıdırlar.

**Hansı ərazilərə köç baş tutub?**

İndiyə qədər beş yaşayış məntəqəsinə - Zəngilan rayonunun Ağalı kəndi, Tərtər rayonunun Talış kəndi, Laçın şəhəri və rayonun Zabux kəndi, Füzuli şəhərinə keçmiş məcburi köçkünlərin köçürülməsi yekunlaşıb.

Bu ilin sonunadək Cəbrayıl, Kəlbəcər, Xankəndi, Xocalı, Şuşa şəhərlərinə təxminən 20 min nəfərin qayıdacağı planlaşdırılır. Ağdam, Zəngilan, Qubadlı şəhərlərinə qayıdış isə 2025-ci ildə nəzərdə tutulur.

Bundan başqa, hazırda yüzdən çox şəhər və kəndin baş planı təsdiqlənib, bir çox şəhər və kənddə inşaat işləri aparılır, rəsmi məlumatlarda bildirilir.

**Türk və İslam dünyası üçün əziz şəhər...**

Mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşən millət vəkili Elman Məmmədov bildirib ki, 2024-cu ilin may ayı xalqımız üçün əlamətdar tarixlərdən biridir. Çünki məhz bu ayda "Qarabağın döyünən ürəyi" adlanan Şuşa şəhərinə yüzə yaxın ailə köçürüldü: "Bildiyiniz kimi, Prezident İlham Əliyevin 10 may 2024-cü il tarixində Şuşa şəhərinə növbəti tarixi səfəri baş tutdu. 32 ildən sonra Qarabağa həyat qayıdır və bu tarix Şuşanın yeni tarixinin başlanğıcıdır. Şuşa şəhəri ilə bərabər Qarabağın bütün bölgəsində yenidənqurma, abadlıq-quruculuq işləri bu gün yüksək səviyyədə davam edir. 10 may tarixini Şuşa sakinləri üçün xüsusi və əlamətdar gün hesab etmək olar. Uzun illər ata-baba yurdlarından didərgin düşmüş sakinlər artıq ölkə başçısının uğurlu siyasəti nəticəsində öz torpaqlarında məskunlaşırlar.

Şuşa bütün azərbaycanlıların qürur mənbəyi, mədəniyyət paytaxtıdır. Şuşa həm də türk və İslam dünyası üçün əziz şəhərdir. Ona görə də Vətən müharibəsində Şuşanın işğaldan azad edilməsi xalqımızın ləyaqətinin özünə qaytarılması və müharibədə zəfərimizin təntənəsi idi. Şuşanı işğaldan azad edən mərd oğullarımız dünya hərb tarixinə yazılan böyük igidlik göstəriblər. Ümumiyyətlə, Azərbaycan Ordusu Qarabağ və Şərqi Zəngəzurun azad edilməsində xalqımızın sarsılmaz ruhunu və əzəmətini nümayiş etdirib".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış"" istiqaməti üzrə hazırlanmışdır**

**Qarabağ dünyanın ən gözəl məkanına çevrilir**

Deputatın sözlərinə görə, son 20 ildə vətənpərvər ruhda böyüyən və formalaşan oğullarımız olmasaydı, bu qələbəni qazanmaq mümkünsüz olardı: "Məhz bu qələbənin təməli onların qəhrəmanlığı, igidliyi və şücaəti sayəsində oldu. Bu gün bütün dünyada bizim qəhrəmanlarımızın göstərdiyi şücaət, cəsarət və vətənpərvərlik ruhundan danışılır. Bu da dövlət və millət olaraq hər birimiz üçün qürur, fəxr, sevinc mənbəyimizdir. 44 günlük Vətən müharibəsi və antiterror əməliyyatları zamanı rəşadətli, müzəffər ordumuz xüsusi qəhrəmanlıq göstərmişdi. Şuşa şəhəri öz əvvəlki tarixi memarlıq görkəmini saxlamaqla bərabər ən müasir formada yenidən qurulur. Şuşada yeni yaşayış kompleksləri inşa edilir, ermənilərin təhqir etdiyi məscidlərimiz bərpa edilərək təmir olunur. Doğma ata-baba yurdlarına qayıdan Şuşa sakinlərinin məşğulluq məsələləridə öz həllini tapır. Qarabağ və Şərqi Zəngəzur dünyanın ən gözəl məkanına çevrilir bu da dünyada Azərbaycanın siyasi və iqtisadi cəhətdən güclü dövlət olmasının bariz nümunəsidir".

Məqalə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İşğaldan azad olunmuş ərazilərə "Böyük Qayıdış" " istiqaməti üzrə hazırlanmışdır.

***Yeganə BAYRAMOVA***

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**"Yeni Azərbaycan" qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

"Azərpoçt" MMC PDM- 0125984955, 0552004544
"Azərmətbuatyayımı" ASC - 0124411991, 0124404694
"Səma" MMC - 0125940252, 0503336969
"Pressİnform" MMC - 0703400100, 0504560835
"Qaya" MMC - 0125667780, 0502352343
"Qasid" MMC - 0124931406, 0124938343
F.Ş.Ruhid Hüseynov - 0124349301, 0505357898
"Türküstan Media Group" MMC – 050 241-48-23
"Region Press" MMC – 055 316-79-01
"Ziya LTD" MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**




*İdman*

## Azərbaycan gimnastları Dünya Kubokunda qızıl medal qazanıblar



Azərbaycan gimnastları Portuqaliyanın Maya şəhərində akrobatika növündə keçirilən Dünya Kubokunda uğurlu çıxış ediblər.Azərbaycan Gimnastika Federasiyasından verilən məlumata görə, yığma turnirdə qızıl və gümüş medal qazanıb.Daniel Abbasov və Murad Rəfiyev kişi cütlərin yarışında çempionluq sevinci yaşayıb. Ağasif Rəhimovla Raziyə Seyidli isə qarışıq cütlərin mübarizəsində ikinci yerin sahibi olublar.

## "Qarabağ" qol sayında mütləq rekorda imza atıb



"Qarabağ" Azərbaycan Premyer Liqasının XXXV turunda "Turan Tovuz"u 4:3 hesabı ilə məğlub edib. Peşəkar Futbol Liqasının rəsmi saytına istinadən xəbər verir ki, Qurban Qurbanovun başçılıq etdiyi komanda bununla da mövsümdəki qol sayını 95-ə çatdırıb. Klub tarixinin mütləq rekorduna imza atan Ağdam təmsilçisi ölkə çempionatlarında son 27 ilin ən yüksək göstəricisinə nail olub. 1997-ci ildən sonra heç bir komanda mövsümdə bu qədər qola sevinməyib. Sonuncu dəfə daha yüksək məhsuldarlığa 1996-1997-ci illər mövsümündə 98 qol vuran "Neftçi" imza atıb. Ümumilikdə isə "Qarabağ" yarışın tarixində 4-cü nəticəyə imza atıb. 27 il əvvəlki göstəricidən başqa, "Neftçi" (104) və Sumqayıt "Xəzər"i (100) 1992-ci ildə daha çox qol vurub.

## Azərbaycan cüdoçuları Avropa Kubokunda altı medal qazanıblar




Azərbaycanın gənc cüdoçuları İspaniyanın Malaqa şəhərində keçirilmiş Avropa Kubokunda 2 qızıl, 1 gümüş və 3 bürünc medal əldə ediblər.AZƏRTAC xəbər verir ki, Süleyman Şükürov (81 kiloqram) və Kənan Nəsibov (+100 kiloqram) fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Finalda S. Şükürova uduzan Əli Hacızadə ikinci yeri tutub. Məhəmməd Musayev (66 kiloqram), Aydın Rzayev (73 kiloqram) və Tuncay Şamil (90 kiloqram) isə bürünc medalla kifayətləniblər. Yığma medal əyarına görə ümumi hesabda 3-cü, oğlanlar arasında isə 2-ci yeri tutub.

## Azərbaycan paraatleti ilk dəfə dünya çempionu olub



Azərbaycan paraatleti Səid Nəcəfzadə Yaponiyanın Kobe şəhərində keçirilən dünya çempionatında birinci olub. Milli Paralimpiya Komitəsindən verilən məlumata görə, o, T12 kateqoriyasında uzunluğa tullanma üzrə yarışda 7.30 metr nəticə ilə dünya çempionu adını qazanıb. Qeyd edək ki, bu, 25 yaşlı idmançının mundiallarda ilk qızıl medalıdır. Səid Nəcəfzadə ötən il Parisdə təşkil edilmiş dünya çempionatında bürünc mükafat qazanmışdı. O, həmçinin Tokio Paralimpiadasında 3-cü yeri tutub. Xatırladaq ki, iki gün əvvəl Azərbaycanın qadın paraatleti Lamiyə Vəliyeva 100 metr məsafəyə qaçış üzrə yarışda qızıl medalı əldə edib.

## Azərbaycan boksçuları Astanadakı turniri 2 medalla başa vurublar



Azərbaycan boksçuları Qazaxıstanın paytaxtı Astanada keçirilmiş "Elorda Cup" beynəlxalq turnirini 2 medalla başa vurublar. Azərbaycan Boks Federasiyasından AZƏRTAC-a verilən məlumata görə, yığmanın heyətində Murad Allahverdiyev (86 kiloqram) finala kimi irəliləyib. Lakin həlledici görüşdə məğlub olan "Paris-2024" Yay Olimpiya Oyunlarının lisenziyaçısı gümüş medal qazanıb. Digər olimpiyaçı Məhəmməd Abdullayev (+92 kiloqram) də "Elorda Cup"da mükafatçılar sırasında yer alıb. O, turniri bürünc medalla bitirib.

# Ən qədim içki növü...

## 21 may Beynəlxalq Çay Günüdür



Adətən yorğun olduğumuz zamanlarda eləcə də əhvalımızı daha da yaxşılaşdırmaq istədiyimiz vaxt ən çox çaya üstünlük veririk. Dünyada sudan sonra ən çox istifadə olunan içki sayılan çayın 5 min illik tarixi var. Çay haqqında əfsanələr də mövcuddur, Böyük Çin İmperatoru Shen Nungın xidmətçisi bağçada su qaynadarkən yarpaqlardan biri qaynayan suyun içinə düşür və sudan yayılan qoxu imperatorun çox xoşuna gəlir. İmperator yarpaq düşmüş suyun dadına baxır və çox bəyənir. O gündən çay Çin ərazisində, daha sonra isə bütün dünyada əvəzolunmaz içkiyə çevrilir.

Çayın bugünkü dəmlənmə şəkli isə 4 min il bundan öncə kəşf edilib. Yeri gəlmişkən, mayın 21-i Beynəlxalq Çay Günü kimi qeyd olunur. BMT bu tarixi çay idxal edən ölkələrdə bu məhsulun istehlakının azaldılmasına diqqət çəkmək məqsədilə elan edib.

Beynəlxalq Çay Gününü qeyd etmək uzun illər müzakirə mövzusu olsa da, bunu yalnız 2004-cü ildə Hindistanın Mumbay şəhərində və 2005-ci ildə Braziliyanın Portu-Aleqri şəhərində keçirilən ümumdünya ictimai forumlarından sonra reallaşdırmaq mümkün olub.

**Çayın yaranma tarixi...**

Çay sözünün mənşəyi də Çinə gedib çıxır. Bu içki həmin ölkənin ayrı-ayrı bölgələrində "ça" və "te" kimi tələffüz olunur. İngilislər də "te" əsasında "tea" sözünü formalaşdırıblar. Çay Avropaya 17-ci əsrin əvvəllərində Holland və Portuqal tacirlər tərəfindən gətirilib. 1635-ci ildən Hollandiya və Fransa Avropada çay istehlakına liderlik edən ölkələr hesab olunurlar. Bu bitkini ilk dəfə Amerikaya gətirən insanın adı isə Peter Stuyvesantdır. 1908-ci ildə bu günümüzdə geniş yayılmış birdəfəlik paket çayların ABŞ-da istehsalına başlanılıb.

Dünyada hazırda ən aparıcı çay istehsalçı ölkələr Hindistan, Şri-lanka, Çin, Türkiyə, Keniya, İndoneziya, Malayziya, və Vyetnamdır.

Azərbaycanda çay bitkisi ilk dəfə 1912-ci ildə Lənkəranda əkilib. İlk çay zavodu da 1937-ci ildə Lənkəranda tikilib. Bundan sonra Azərbaycanda çayın kütləvi şəkildə istehsalına başlanılıb. Ölkəmizdə çay əsasən Lənkəran, Astara, Masallı və Zaqatalada yetişdirilir. 1970-1980-ci illərdə 36 min hektar sahədə çay əkilib becərilib və 34 min tondan çox çay istehsal edilib. Həmin vaxt 15 zavod istifadəyə verilmişdi.

Gündəlik istifadə etdiyimiz çayın necə hazırlandığı, hansı çayın daha keyfiyyətli olduğu, eləcə də çayla bağlı digər məqamlar yəqin ki, çoxlarına maraqlıdırır. Çay üzrə mütəxəssis Nuriyyə Rəhmanova mövzu barədə fikirlərini "Yeni Azərbaycan"la bölüşüb. Onun sözlərinə görə, çay təbabətdə, infeksion xəstəliklərin qarşısının alınmasında, göz, dil, diş xəstəliklərinin müalicəsində istifadə olunub.

**Hansı çay daha yaxşıdır?**

Mütəxəssis qeyd edib ki, çay əkildikdən 5 il sonra məhsul verir. Onun sözlərinə görə, çayı bölgə ilə çox da bağlamaq düzgün deyil. Hansı çaya aqrotexniki qulluq göstərilirsə, onda məhsuldarlıq və keyfiyyət yüksək olur: "Dünyada Hindistan çayı daha yaxşı çay hesab olunur. Bu gün ölkəmizdə istehsal olunan çaylar Hindistan-Çin hibridindən alınıb. Çünki bu məhsul şaxtaya dözümsüzdür, Günəş və suyu daha çox sevir. Son dönəmlər mənfi 5 dərəcəyə qədər dözən çay kolları əkilib. Çayın keyfiyyətli olması sırf aqrotexniki qulluq qaydalarına əməl edilməsi ilə bağlıdır. Yaxşı qulluq etdikdə ildə dörd dəfə məhsul götürmək mümkündür. Ən yaxşı çay "buket" növ hesab olunur. Daha sonra əla, ondan sonra birinci növ çay gəlir".

**Çay alarkən nələrə diqqət edək?**

N.Rəhmanova bildirib ki, hazırda ölkəmizdə çay yetişdirilməsi stimullaşdırılır: "Çaya uzaqdan baxanda onun keyfiyyətli məhsul olub-olmadığını bilmək olmaz. Çayı istifadə etdikdən, dəmlədikdən sonra onun keyfiyyətinə qiymət vermək mümkündür. Bununla belə, çay alan zaman onun üzərində istehsal tarixinə, çeşidi, növü və sair məqamlara diqqət etməliyik. Qablaşdırılması normal olan məhsula üstünlük verilməlidir. Dəmlədikdən sonra çayın ətrindən onun keyfiyyətini bilmək olar. Çayın üzərinə qaynar su tökdükdə çaya xas olan ətir qalxır. Bu ətir bir qədər portağal, bir qədər də alma ətrinə bənzəyir. Amma bu, bənzətmədir".

**Çayın faydaları...**

Mütəxəssisin sözlərinə görə, çayın tərkibində kofein olduğundan, dəmləyib istifadə etdikdən sonra yorğunluğu aradan qaldırır: "Çayın tərkibindəki antioksidant qocalmanı ləngidir. Bizim vərdişə çevirdiyimiz çay bütün infeksion xəstəliklərdə orqanizmə kömək edir. Həmçinin yeni hüceyrələrin yaranmasına kömək edir. Çay bədəni tərk edənə qədər bütün orqanlarımıza faydası toxunur. Çay bədəndə qan damarlarına, əzələlərin bərpasına müsbət təsir göstərir".

**Dəmlədikdən sonra 20-30 dəqiqə ərzində...**

N.Rəhmanova bildirib ki, köhnə çayı istifadə etmək tövsiyə edilmir: "Nəzərə almaq lazımdır ki, biz çayı yorğunluğumuzun çıxması üçün içirik ki, bədənimiz gümrahlaşsın. Eyni zamanda, susuzluğumuzu yatırsın. Biz köhnə çay içdikdə artıq orqanizmimizə çayın bir faydası olmur. Ona görə də çayı dəmlədikdən sonra 20-30 dəqiqə ərzində istifadə etmək məsləhətdir".

Mütəxəssis qeyd edib ki, iriyarpaqlı çaylar daha gec dəm alır. Orta iri yarpaqlı çaylar nisbətən tez dəmlənir. Birdəfəlik çaylar isə ən tez dəmlənən çaylardır.

**Ətirli çaylar ziyandırmı?**

Qeyd edək ki, son vaxtlar bazarda ətirli çay çeşidlərinə daha çox rast gəlinir. N.Rəhmanova vurğulayıb ki, buna ətirləndiricilərdən istifadə etməklə nail olunur: "Ətirləndiricilərdən istifadə müxtəlif zövqləri oxşamaq məqsədi daşıyır. Çayı ətirləndirmək üçün təbii qida məhsullarında istifadə olunan efir yağlarından istifadə edilir. Ətirləndiricilər arasında ən populyar olanı isə berqamotdur. Ətirli çaylar bazarda bəyənilir. Ziyanı yoxdur".

**Çayımız 40 ölkədə satılır**

Mütəxəssis bildirir ki, Azərbaycanın istehsal etdiyi çay bu gün 40-dan çox ölkəyə ixrac olunur. Azərbaycan çaylarına ən böyük tələbat isə ərəb ölkələrində, Rusiya, Ukrayna, Amerikadadır. Onun sözlərinə görə, Azərbaycan çayı Yaponiya bazarına da çıxardılıb.

**Gündə neçə stəkan çay içmək məsləhətdir?**

Azərbaycanda adına mahnılar yazılan "armudu stəkanda çay" deyimi isə sən demə, elə-belə yaranmayıb. Armudu stəkanda çayın daha dadlı olduğunu mütəxəssis də təsdiqləyir. Onun sözlərinə görə, armudu stəkanın quruluşuna görə soyuma tədricən getdiyindən çay isti və ləzzətli olur. O deyir ki, bir insan gün ərzində 8-12 armudu stəkan çay qəbul edə bilər.

*Yeganə BAYRAMOVA*

# Çində yaşayan azərbaycanlılar beynəlxalq mədəniyyət festivalında ölkəmizi təmsil ediblər

Çində yaşayan azərbaycanlılar Pekindəki Fançaodi beynəlxalq məktəbində keçirilən beynəlxalq mədəniyyət festivalında ölkəmizi təmsil ediblər. Xalqlar arasında mədəniyyət mübadiləsini təşviq etmək məqsədilə təşkil olunan ənənəvi festivalda 100-ə yaxın stenddə müxtəlif xalqlar öz mədəniyyətlərini nümayiş etdiriblər. Fançaodi beynəlxalq məktəbində təhsil alan azərbaycanlı şagirdlərin və onların ailələrinin ölkəmizin Çindəki səfirliyinin dəstəyi ilə hazırladıqları milli stenddə Azərbaycanın tarixinə, müasir inkişafına, turizm potensialına, xalqımızın mədəniyyətinə, musiqisinə, xalçaçılıq sənətinə dair kitablar, nəşrlər, bukletlər nümayiş olunub. Stendimizi ziyarət edənlər, həmçinin milli geyimlər, suvenirlər, musiqi alətləri ilə tanış olmaq imkanı əldə ediblər.

Ziyarətçilərə Azərbaycanın dünya sivilizasiyasına verdiyi töhfələr, ölkəmizin tolerantlıq və multikulturalizm dəyərləri, habelə Azərbaycanda keçirilmiş və təşkili nəzərdə tutulan nüfuzlu beynəlxalq tədbirlər, o cümlədən COP29 konfransı, işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa-quruculuq işləri barədə məlumat verilib.

Festivalda ölkələrin mətbəxtlərindən dadlı təamlar, milli musiqi nümunələri təqdim olunub.




Təsisçi:
**Yeni Azərbaycan Partiyası**
**Baş redaktor:**
Alqış HƏSƏNOĞLU

**www.yeniazerbaycan.com**
**mail@yeniazerbaycan.com**
**Ünvan:** Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
**598-37-76, 498-82-21**
**498-81-24, 498-19-84**

**İndeks: 67100**
**Lisenziya: N-B-317**
**Tiraj: 5659**
**Sifariş: 1146**
"Kapital Bank" ASC-nin Nərimanov rayon filialı
**h/h** - 33080019443900419109
**kod** - 200093
**VÖEN** - 1500486601

**Qəzet "Yeni Azərbaycan"ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilib.**

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova